Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

30-2
NOYABR-DEKABR 2019-cu il
№ 213 (4111)
Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYANIN KTMT SİSTEMİNDƏ AZƏRBAYCANA QARŞI UĞURSUZ DEMARŞI - «AZƏRBAYCAN İŞİD-i BÖLGƏYƏ GƏTİRƏCƏK»...

■ səh. 8 ■



## Prezident İlham Əliyev Neft Fondu xəttilə milyardlarla neft gəlirlərini necə xilas etdiyi tarixçəni açıqladı

*Prezident Dövlət Neft Fondunun yeni təyin olunmuş icraçı direktorunu qəbul etdi*

■ səh. 3 ■


Azərbaycan Prezidenti Administrasiyasında əsaslı kadr dəyişikliyi edildi ■ səh. 2 ■


Azərbaycan yenə KTMT-də Ermənistanı pis vəziyyətdə qoydu ■ səh. 9 ■


Azərbaycan Xəzər qazını Avropaya çatdırmaq kimi tarixi missiyanı da uğurla icra etdi ■ səh. 7 ■


Azərbaycanda elektron ticarəti islahatların sürətinə necə yaxınlaşdırmaq olar... ■ səh. 13 ■


Ermənistan transsərhəd çaylarla bütün regionu zəhərləyir... ■ səh. 10 ■

Bakı qəbiristanlıqlarında məzar məzar üstündədir... ■ səh. 14 ■

Hay sürüsünün etnogenezisində Qədim Misir "kodu" ■ səh. 15 ■


Radikal müxalifət fövqəladə parlament seçkilərini ənənəvi olaraq «xaricdən hansısa qorxu» ilə əlaqələndirdi... ■ səh. 6 ■

Sanksiyaların ağır təsir etdiyi İran - Prezidentə həbs, din dövlətdən ayrılsın tələbi... ■ səh. 6 ■


Yerli taxıl istehsalı artsa da, Azərbaycana idxalı da azalmır - paradoks, ya... ■ səh. 11 ■

■ səh. 4 ■ Azərbaycan XİN Paşinyanın KTMT-ni Qarabağ münaqişəsinə cəlb etmək cəhdini ifşa etdi


■ səh. 10 ■ Prezidentin gənclərə "diplom əsas deyil, bilikli olun" çağırışı - cəmiyyətimizin intellektual nüvə məsələsi...


■ səh. 5 ■ Milli Məclisin buraxılması mexanizmi ən aktual müzakirə mövzusu kimi...


■ səh. 14 ■ Maliyyə Palatasının ləğvindən sonra Azərbaycanın bank-maliyyə-kredit bazarında vəziyyət...


■ səh. 12 ■ Bakı İcra Hakimiyyəti bağçalarda dəhşətli vəziyyətlər aşkarlayıb


# Azərbaycan Prezidenti Administrasiyasında əsaslı kadr dəyişikliyi edildi

**Azərbaycan Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının yeni strukturu təsdiq olunub və Administrasiyanın işinin təkmilləşdirilməsi, qarşıya qoyulan vəzifələrdən irəli gələrək strukturun tərkibi yenidən formalaşdırılıb.**

Prezidentin müvafiq Sərəncamları ilə Azərbaycan Respublikası Prezidentinin yeni köməkçiləri və Prezident Administrasiyasının şöbə müdirləri təyin olunub.

Eyni zamanda, Azərbaycan Prezidenti Administrasiyası haqqında Əsasnamənin layihəsi bir ay müddətində hazırlanaraq Azərbaycan Respublikası Prezidentinə təqdim ediləcək.

Prezident İlham Əliyev Eldar Nuriyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti şöbəsinin müdiri vəzifəsindən azad edilməsi, İsrafil Məmmədovun Dövlət Neft Fondunun İcraçı direktoru təyin edilməsi, Şahmar Mövsümovun Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru vəzifəsindən azad edilməsi, onun Azərbaycan Respublikası Prezidentinin köməkçisi ? Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri təyin edilməsi, Əli Həsənovun Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri vəzifəsindən azad edilməsi, Fuad Ələsgərovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi ? Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri təyin edilməsi, Natiq Əmirovun Azərbaycan Respublikası Prezidentinin köməkçisi ? Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri təyin edilməsi, Zeynal Nağdəliyevin Azərbaycan Respublikası Prezidentinin köməkçisi ? Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında sərəncamlar imzalayıb.

Prezident İlham Əliyev daha bir sərəncamla Anar Ələkbərovu Azərbaycan Respublikası Prezidentinin köməkçisi təyin edib, bundan əvvəlki sərəncamla isə Anar Sahib oğlu Ələkbərov Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi vəzifəsindən azad edilib.



Digər sərəncamlarla Ədalət Məqsəd oğlu Vəliyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri, Şahin Məhərrəm oğlu Əliyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri, Kərəm Əvəz oğlu Həsənov Azərbaycan Respublikası Prezidentinin köməkçisi ? Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri, Hikmət Fərhad oğlu Hacıyev Azərbaycan Respublikası Prezidentinin köməkçisi ? Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Süleyman Abbas oğlu İsmayılov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri, Fərəh Şirməmməd qızı Əliyeva Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri təyin edilib, Məhərrəm Abış oğlu Əliyev Azərbaycan Respublikası Prezidentinin köməkçisi ? Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri təyin edilib və

Məhərrəm Əliyev ədliyyə nazirinin müavini vəzifəsindən azad edilib.

***Baki-xeber.com***



## Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyası "Reket siyahını" genişləndirəcək

**Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib.**

Komissiya ilk olaraq Ağsu rayon sakini Səadət Mehdiyevanın "Bələdiyyə birliyi" qəzetinə qarşı şikayətini araşdırıb. Komissiya müəyyən edib ki, şikayət doğuran materiallarda "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın 1-ci prinsipinin (Həqiqətə xidmət, dəqiqlik və obyektivlik) tələbləri pozulub. Qəzetdə Səadət Mehdiyeva haqqında dərc edilən yazıda kəskin ifadələr və ittihamlar yer alsa da, onun mövqeyi öyrənilməyib, material birtərəfli hazırlanıb. Qəzet təmsilçisi hərəkətlərini əsaslandırmaq üçün Komissiyaya heç bir tutarlı arqument təqdim etməyib. "Bələdiyyə birliyi" qəzeti ilə bağlı məsələnin geniş araşdırılmasının MŞ-nin "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasına həvalə edilməsinə dair rəy verilib. Azərbaycan Dövlət Aqrar Universitetinin Mətbuat və İctimaiyyətlə Əlaqələr Şöbəsinin "Aktualinfo.org" xəbər portalına qarşı şikayəti də araşdırılıb. Şikayətçi bildirib ki, "Aktualinfo.org" xəbər portalında Universitet barədə tənqidi material yayılıb. Faktlar birtərəfli işıqlandırıldığı, əsassız ittihamlarla zəngin olduğu üçün redaksiyaya təkzib məktubu göndərilib. Təkzib dərc edilsə də, ona şərhlər qoşulub və kontekstdən çıxarılıb. Portal rəhbərliyi Komissiyanın yeni təkzib mətni dərc etməsi barədə tövsiyəsini qəbul edib.

Bakı şəhəri 244 nömrəli tam orta məktəbin direktoru Yəhya Abbasovun "Azxeber.com", "Aktualxeber.az" saytlarına qarşı şikayəti, şikayətçinin iclasa qatılmaması və əsaslandırma üçün zəruri faktlar təqdim etməməsi səbəbindən baxılmamış saxlanılıb. "Qarabağ" qəzetinin əməkdaşı Əntiqə Aslanovanın qəzetin baş redaktoruna qarşı şikayəti də müzakirə edilib. Baş redaktor mövqeyini əsaslandırmaq üçün əlavə sənədlərə ehtiyacın olduğunu bildirib və müzakirələrin növbəti toplantıya keçirilməsini istəyib. Komissiya bu istəyi təmin edib, məsələnin müzakirəsi növbəti iclasa saxlanıb.

# Səbinə Əliyeva Azərbaycanın yeni Ombudsmanı seçildi

**Milli Məclisin noyabrın 29-da keçirilən iclasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) seçilməsi haqqında məsələ müzakirəyə çıxarılıb.**

"Trend"in məlumatına görə, ombudsmanlığa üç namizəd - Apellyasiya Məhkəməsinin sədrinin müavini Kəmalə Abıyeva, Ali Məhkəmənin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri Kəmalə Əliyeva və Konstitusiya Məhkəməsi Aparat rəhbərinin müavini Səbinə Əliyevanın namizədliyi irəli sürülüb.

Müzakirələrdən sonra 104 səs çoxluğu ilə Səbinə Əliyeva yeni ombudsman seçilib.

Qeyd edək ki, Konstitusiya Məhkəməsinin aparat rəhbərinin müavini vəzifəsində çalışan Səbinə Əliyeva 3-cü dərəcəli Dövlət müşaviridir. İxtisasca hüquqşünas olan S.Əliyeva, eyni zamanda, hüquq üzrə fəlsəfə doktorudur.

Bundan əvvəl Milli Məclisin İnsan Hüquqları Komitəsi müvəkkilin seçilməsi üçün namizədlər barədə rəy verib. Milli Məclisin sədr müavini



Bahar Muradova bildirib ki, təqdim olunan namizədlər cəmiyyətdə kifayət qədər tanınan, tərcümeyi-halı zəngin olan insanlardır: "Onların hər biri şəxsi keyfiyyətlərinə görə bu vəzifəni tuta bilər. Namizədlər həm qanunda nəzədə tutulan tələbləri yerinə yetirə biləcək, eləcə də ictimai-siyasi həyatda hörmət və nüfuz sahibinə malik insanlardır. Bu təqdimat və onların yaşı, keçdiyi həyat yolu bu gün Azərbaycanda həyata keçirilən siyasətə, yeniləşmə ruhuna tam uyğundur".

B.Muradova söyləyib ki, məsələ komitənin iclasında müzakirə edilərkən Ombudsmanın institutunun keçdiyi, vətəndaşların həyatında oynadığı yol, beynəlxalq aləmdə həyata keçirdiyi fəaliyyət müzakirə olunaraq, institutun etimadı doğrulduğu qeyd olunub: "Bir sözlə biz bu qənaətə gəldik ki, hər üçün namizəd müvəkkil olmağa layiqdirlər. Kimin seçilməsindən asılı olmayaraq Ombudsman institutunun gələcək fəaliyyətinə uğurlar arzu edirik".

Ombudsman Səbinə Əliyeva Milli Məclisdə and içib. S.Əliyeva andiçmə mərasimində bildirib ki, öz vəzifəsini şərəf və ləyaqətlə yerinə yetirəcək: "Əsası Ulu Öndər tərəfindən qoyulan və Prezident İlham Əliyevin daha da təkmilləşdirdiyi insan hüquqlarının təmin edilməsi sisteminin fəaliyyətinə töhfə verilməsi, bununla da cəmiyyətimizdə gedən hərtərəfli inkişaf prosesinin dəstəklənməsi üçün bütün səylərimi əsirgəməyəcəm".

O qeyd edib ki, bu baxımdan vətəndaşlar, habelə əhalinin müxtəlif qrupları, o cümlədən yetkinlik yaşına çatmayanlar, əlillər və digər zəif qrupların hüquq və azadlıqlarının səmərəli qaydada təmin edilməsi insan hüquqları üzrə müvəkkilinin işinin prioritet istiqaməti olaraq qalmaqdadır: "Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində soydaşlarımızın kütləvi şəkildə pozulmuş hüquqlarının müdafiəsi, işğal nəticəsində ölkəmizin tarixi və mədəni sərvətlərinin dağıdılması faktlarının dünya ictimaiyyətinə çatdırılması, pozulmuş insan hüquq və azadlıqlarının bərpası bu işin mühüm tərkib hissələrindəndir".

# Prezident İlham Əliyev Neft Fondu xəttilə milyardlarla neft gəlirlərini necə xilas etdiyi tarixçəni açıqladı

*Prezident Dövlət Neft Fondunun yeni təyin olunmuş icraçı direktorunu qəbul etdi*

**Prezident İlham Əliyev noyabrın 29-da İsrafil Məmmədovu yeni vəzifəyə - Dövlət Neft Fondunun icraçı direktoru təyin olunması ilə əlaqədar qəbul edib. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib:**

-Azərbaycan Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov Prezidentin köməkcisi vəzifəsinə təyin edilmişdir. Siz on ildən çoxdur ki, direktor müavini vəzifəsində işləyirsiniz, təcrübə toplamısınız. Mən qərara gəldim ki, sizi icraçı direktor vəzifəsinə təyin edim. Bu böyük etimaddır. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

Dövlət Neft Fondu bizim strateji aktivimizdir. Bu il biz Fondun yaradılmasının 20-ci ildönümünü qeyd edəcəyik. Əlamətdar hadisə ondan ibarətdir ki, "Çıraq" platformasından ilk neft çıxarılandan iki il sonra - 1999-cu ildə Azərbaycanda Dövlət Neft Fondu yaradılmışdır. Fondun yaradılması ulu öndər Heydər Əliyevin tarixi qərarıdır. Bu gün bu qərar onu göstərir ki, nə qədər düzgün və vaxtında atılmış bir addım idi. Onu da bildirməliyəm ki, Neft Fondunun yaradılması ilə bağlı təklifi Ulu Öndərə mən vermişdim. O vaxt hökumətdə müxtəlif fikirlər var idi və hökumət üzvlərinin bəziləri bunun əleyhinə çıxmışdılar. Onların təklifi ondan ibarət idi ki, neftdən gələcək bütün gəlirlər büdcəyə daxil olsun və hər il xərclənsin. Əgər bu yanaşma seçilsəydi, bu gün Dövlət Neft Fondumuzda pul olmayacaqdı. Mən bu təklifin əleyhinə çıxdım. Sübut etməyə çalışırdım və buna nail oldum ki, məhz vəsaiti şəffaf şəkildə saxlamaq, ölkəmizin strateji istiqamətlərinə yönləndirmək və gələcək nəsillər üçün qoruyub saxlamaqdan ötrü mütləq Dövlət Neft Fondu yaradılmalıdır. Mənim təşəbbüsümlə Azərbaycan dövlət qurumlarının nümayəndələrindən ibarət heyət dünyanın müxtəlif ölkələrinə ezam edilmiş və orada oxşar fondların fəaliyyəti ilə tanış olmuşdur. Bundan sonra biz dünyada mövcud olan ən şəffaf və ən işlək model üzərində dayanıb onu qəbul etmişik və ötən 20 ilin təcrübəsi onu göstərir ki, bu, yeganə düzgün qərar idi. Deyə bilərəm ki, bu, tarixi qərar idi. Çünki Dövlət Neft Fondunun vəsaiti - orada toplanan, neftdən əldə edilmiş və hazırda artıq qazdan əldə edilmiş gəlirlər ölkəmizin ümumi inkişafını böyük dərəcədə şərtləndirir.

Biz ölkə qarşısında duran önəmli sosial layihələri icra edə bilmişik. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məhz Dövlət Neft Fondunun vasitəsilə icra edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənibdir. Hər il Dövlət Neft Fondundan büdcəyə edilmiş transfertlər hesabına biz sosial layihələri icra edə bilirik, bu, maaşların, pensiyaların, müavinətlərin artırılmasına imkan yaradır. Eyni zamanda, ölkəmiz üçün strateji sayılan sahələri də Neft Fondu maliyyələşdirir. Onların arasında təhsillə bağlı olan layihələr var. Azərbaycan gənclərinin dünyanın aparıcı ali məktəblərində təhsil alması ilə bağlı təşəbbüs də Fond tərəfindən təmin edilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi, digər önəmli strateji layihələr, qazma qurğularının tikintisi - bütün bunlar Dövlət Neft Fondunun vəsaiti hesabına icra edilib.

Bir sözlə, deyə bilərəm ki, bu gün Azərbaycan Dövlət Neft Fondu ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir qurumdur. Eyni zamanda, Fondumuzun beynəlxalq imici də çox müsbətdir. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl Fond BMT-nin mükafatı ilə təltif edilmişdir. Onu da bildirməliyəm ki, mənim təşəbbüsümlə Azərbaycan o vaxt Böyük Britaniyanın Baş Naziri tərəfindən irəli sürülmüş təşəbbüsə qoşuldu. Təşəbbüsün adı Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü idi. Azərbaycan bu təşəbbüsə qoşulan və onun bütün meyarlarını təmin edən ilk ölkələrdən idi. Uzun illər biz bu təşkilat çərçivəsində fəaliyyət göstərmişdik. Ancaq görəndə ki, artıq bu təşkilat öz mahiyyətini itirir, burada siyasiləşmə prosesi gedir və Azərbaycana qarşı qeyri-obyektiv, qərəzli yanaşma tətbiq olunur, biz məsələ qaldırdıq ki, əgər buna son qoyulmasa, Azərbaycan bu təşkilatdan çıxacaqdır. O vaxt mən bunu bildirəndə, sözün düzü, təşkilatın rəhbərliyi buna o qədər də inanmadı. Yadımdadır, o vaxt mənim təşkilatın rəhbər işçiləri ilə görüşüm keçirilmişdir və mən açıq dedim ki, mənim sözümlə əməlim arasında fərq yoxdur. Əgər deyirəmsə, biz buradan çıxacağıq və belə də oldu. O qərarı biz qəbul etdik, o, asan qərar deyildi. Çünki biz bu təşəbbüsə qoşulan ilk ölkələrdən biri kimi, bu təşkilatın formalaşmasında da önəmli rol oynamışdıq. Ancaq həyat göstərdi ki, nə qədər düzgün addım atıldı. Bizdən bir qədər sonra Amerika Birləşmiş Ştatları da bu təşəbbüsdən çıxdı və beləliklə, Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü adlandırılan qurum tamamilə nüfuzdan düşdü və bu gün onun adı heç yerdə çəkilmir. Bu təşkilatda üzvlüyümüz, əslində, bizim niyyətimizə o qədər də böyük təsir etmədi. Çünki şəffaflıq bizim şüurlu seçimimizdir və bu gün Dövlət Neft Fondu dünyadakı suveren fondlar arasında ən şəffaf, ən səmərəli işləyən fondlardan biridir. Mən yaxşı bilirəm ki, buna oxşar bəzi fondlar son vaxtlar böyük itkilərə məruz qalmışdır, çünki onlar çox riskli siyasət aparırdılar, daha çox pul qazanmaq əzmində idilər. Bizim isə yanaşmamız, - mən bunu həmişə demişdim, - konservativ olmalıdır, mühafizəkar olmalıdır. Bizim əsas vəzifəmiz vəsaiti qorumaqdır və vəsaiti riskli olmayan alətlərə yatırmaqdır. Biz indi artıq çoxşaxəli valyuta səbətini əldə etmişik və burada da valyuta məzənnəsinin dəyişkənliyi bizim vəsaitimizə təsir etmir. Biz qızıla böyük yatırım etmişik, daşınmaz əmlaka böyük yatırım etmişik, Fondun vəsaiti coğrafi baxımdan da çoxşaxəlidir. Yəni biz özümüzü mümkün olan bütün risqlərdən qoruduq. Ən önəmlisi ondan ibarətdir ki, 20 il ərzində biz vəsait itirmədik və Fondun vəsaitini ildən-ilə artırırıq. Hətta böhranlı, devalvasiyaya uğradığımız illərdə də Fondun vəsaiti azalmadı. Mən imkan vermədim. Biz xərcləri azaltdıq, böyük qənaət tədbirlərinə yol açdıq, strateji valyuta ehtiyatlarımızı qoruduq və onları artırdıq. Deyə bilərəm ki, bu, çox nadir hallarda baş verən hadisədir. Çünki o dövrdə, neftin qiymətinin kəskin - 4 dəfə düşməsi dövründə bütün suveren fondlar böyük pullar itirdi. Milyardlarla, on milyardlarla dollar itirildi. Biz isə itirmədik, ona görə ki, çox düşünülmüş siyasət apardıq.

Mən çox şadam ki, Fondun idarəetmədən əldə edilən gəlirləri artır. Bu, çox yaxşı göstəricidir. Bu il, - hələ il başa çatmayıb, - Dövlət Neft Fondunun gəlirləri 4 milyard dollardan çox artıbdır. Bunun 1,8 milyard dolları məhz idarəetmədən əldə edilmiş gəlirlərdir. Yəni, bu, böyük vəsaitdir. Fondun düzgün siyasəti və vəsaitin düzgün yerləşdirilməsi, bax, belə imkanlar yaradır. Əminəm ki, bizim valyuta ehtiyatlarımız ildən-ilə artacaq. Hazırda bizim strateji valyuta ehtiyatlarımız 50 milyard dollardan çoxdur. Bu, rekorddur, tarixi göstəricidir. Bu, göstərici məhz ona görə önəmlidir ki, o, bizim ümumi daxili məhsulumuzdan da çoxdur. Belə hallar indi çox nadir ölkələrdə müşahidə olunur. Eyni zamanda, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir və biz bu göstəriciyə görə dünyada doqquzuncu yerdəyik. Biz gələn ilin büdcəsində neftin qiymətini 55 dollar səviyyəsində nəzərdə tuturuq. Bu da çox mühafizəkar yanaşmadır. Hazırda "Azeri Light" neftinin qiyməti 70 dollara yaxınlaşır, biz 55 götürürük. Çünki daha çox pul yığılsın. Məsələn, biz 65 götürsək, onda bu pul transfer şəklində büdcəyə gələcək və xərclənəcək. Ehtiyac yoxdur. İndi biz şəffaflıq, dürüstlük, islahatlar nəticəsində büdcəmizi digər sahələr vasitəsilə təmin edirik. Vergi və gömrük orqanları on ay ərzində 850 milyon manat əlavə vəsait toplayıblar. İlin sonuna qədər vaxt var, bu, artacaq. Ona görə biz Neft Fondunun gəlirlərinə qənaət etməliyik. Yəni, bir sözlə, Azərbaycanda bir çox sahələrdə olduğu kimi, bu sahədə də çox düzgün yanaşma, düşünülmüş siyasət və xalqın maraqlarına uyğun atılan addımlar, bax, bu gözəl nəticəni əldə etməyə imkan verdi.



Mən Fondun fəaliyyətini yüksək qiymətləndirirəm. Məhz buna görə Fondun icraçı direktoru Şahmar Mövsümov mənim tərəfimdən Prezidentin köməkçisi vəzifəsinə təyin edilib. Əminəm ki, o, köməkçi kimi islahatların dərinləşdirilməsi istiqamətində önəmli rol oynayacaqdır.

Sizə isə tövsiyəm ondan ibarətdir ki, əldə olunmuş uğurları davam etdirəsiniz. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Dövlət Neft Fondu həm öz aktivlərini artırmalı, onları əmniyyətli şəkildə yerləşdirməlidir. Strateji resursumuz olan Neft Fondumuz daim ölkəmizin, xalqımızın mənafeyi üçün çalışmalıdır.

**Baki-xeber.com**

**"Ermənistanın baş naziri N.Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Bişkekdə keçirilən iclası zamanı səsləndirdiyi fikirlər onun növbəti dəfə yalan və militarist ritorikadan çıxış etdiyini bariz şəkildə göstərir". Baki-xeber.com xəbər verir ki, bunu XİN-in Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan baş nazirinin KTMT-nin Bişkekdə keçirilən görüşündə çıxışını şərh edərkən deyib.**

# Azərbaycan XİN Paşinyanın KTMT-ni Qarabağ münaqişəsinə cəlb etmək cəhdini ifşa etdi



L.Abdullayeva daha sonra bildirib: "Əslində bu kimi ritorika ilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə aparılan danışıqları pozan elə N.Paşinyanın özüdür. Cari ilin avqust ayında Ermənistan baş nazirinin Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində səsləndirdiyi "Dağlıq Qarabağ Ermənistandır" fikri danışıqlar prosesinə çox ciddi zərbə vurmuşdur. Əgər N.Paşinyan bu fikrini dəyişibsə o, bunu açıq şəkildə bildirməlidir, yox əgər baş nazir bu fikrində hələ də qalırsa, bu danışıqlar üçün ciddi bir zərbədir.

Ermənistan-Azərbaycan dövlət sərhədi boyunca müxtəlif təxribatlar törədən, mülki əhalini atəşə tutan, o cümlədən bu ilin 3 oktyabr tarixində Azərbaycanlı ekskavatorçunu qətlə yetirən Ermənistan tərəfi bu kimi təxribatçı vasitələrlə KTMT-ni münaqişəyə cəlb etmək istəyir. KTMT üzv dövlətləri ilə Azərbaycan arasında, hərbi-siyasi və hərbi-texniki əməkdaşlıq da daxil olmaqla sıx əməkdaşlıq münasibətləri mövcuddur. Xüsusilə Rusiya ilə Azərbaycan arasında mövcud olan əməkdaşlığı qeyd etmək istərdik. Rusiya ilə Azərbaycan arasında bütün sahələrdə, o cümlədən hərbi-texniki sahədə geniş əməkdaşlıq vardır. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu ilin 30 oktyabr tarixində Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunu, 26 noyabr tarixində isə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovu qəbul edib və hər iki görüşdə 2020-ci ildə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunub. Ehtiyac olarsa, Azərbaycan Rusiyadan yeni silahlar ala bilər. Vurğulamaq istərdik ki, bu məsələnin Ermənistan baş nazirinə hər hansı aidiyyəti yoxdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyev MDB Dövlət Başçılarının Şurasının Aşqabad şəhərində keçirilən iclasında Ermənistanda faşizmin qəhrəmanlaşdırılması, Qaregin Njde adlı faşist cəlladına abidənin ucaldılması barəsində konkret sənədlərə və dəlilərə istinad edərək çıxış etdi. Bu çıxışa cavab verməyə cəhd göstərən Ermənistan baş naziri Paşinyanın gülünc və cəfəng fikirləri Prezident İlham Əliyev tərəfindən cavab çıxışı ilə böyük ustalıqla darmadağın edildi. İndi Ermənistan hökumətinin başçısının bu fikirləri hətta Ermənistanın özündə gülüş və məsxərə obyektinə çevrilib. Baş nazir Paşinyanın SSRİ xarici işlər naziri V.Molotovun da Hitler ilə görüşdüyünü qeyd etməsi, həmçinin Qaregin Njdeni A.Soljenitsin ilə eyniləşdirməsi tarixi savadsızlıq və sinizmin nümunəsidir.

Ermənistan baş naziri anlamalıdır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin KTMT-yə heç bir aidiyyəti yoxdur".




## YAP-ın Milli Məclisi buraxmaq təşəbbüsünə bitərəf deputatlar da qoşuldu...

**Milli Məclisin buraxılması məsələsi dekabrın 2-də müzakirəyə çıxarılacaq. "Trend"in məlumatına görə, bunu Milli Məclisin spikeri Oqtay Əsədov deyib.**

Spiker bildirib ki, Yeni Azərbaycan Partiyası (YAP) parlamentin buraxılması ilə bağlı Milli Məclisə müraciət edib. Məsələyə baxıldıqdan sonra ölkə Prezidentinə müraciət ünvanlanacaq.

Qeyd edək ki, noyabrın 28-də YAP Siyasi Şurasının iclası, eyni zamanda partiyanı parlamentdə təmsil edən deputatlarla görüş keçirilib. İclasda partiyanı təmsil edən deputatlara Milli Məclisin buraxılması ilə bağlı təşəbbüslə çıxış etmələri tövsiyə olunub. Həmçinin bununla bağlı Milli Məclisə müraciət ünvanlanması qərara alınıb.

Milli Məclisdə təmsil olunan bitərəf deputatların iclası keçirilib. "Trend"in məlumatına görə, iclasda bitərəf deputatlar da parlamentin buraxılması təşəbbüsü ilə çıxış ediblər. Bununla bağlı Milli Məclisə müraciət ünvanlanacaq.

# 2020-ci il dövlət büdcəsi son oxunuşda təsdiq olundu

**Milli Məclisin noyabrın 29-da keçirilən plenar iclasında "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılıb.**

"Trend"in məlumatına görə, 2020-ci il icmal büdcənin gəlir və xərcləri təqdim olunmuş layhədəki kimi müvafiq olaraq 27 milyard 552 milyon manat və 29 milyard 488 milyon manat səviyyəsində nəzərdə tutulur.



Növbəti ildə sosialyönümlü xərclərin məbləği 10 milyard 642 milyon manat təşkil edəcək. Bu da cari illə müqayisədə 2 milyard 874 milyon manat və ya 37 faiz çoxdur.

Plenar iclasda deputatların büdcə ilə bağlı qaldırdığı məsələlər Maliyyə Nazirliyi tərəfindən öyrənilib. Plenar iclasda deputatların toxunduqları məsələlər cavablandırılıb.

Müzakirələrdən sonra dövlət büdcəsi səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Qeyd edək ki, parlamentin bu gün iclasının gündəliyinə 2020-ci il üçün yaşayış minimumu haqqında", "2020-ci il üçün ehtiyac meyarının həddi haqqında", "Dövlət Sosial Müdafiə Fondunun 2020-ci il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2020-ci il üçün dövlət büdcəsi haqqında" qanun layihələri, Milli Məclisin və Hesablama Palatasının növbəti il üçün xərclər smetaları və digər məsələlər daxildir.

 

# Məhkəmə Zümrüd Yağmur və Fuad Qəhrəmanlıya barışıq üçün 3 ay vaxt verdi

**Abşeron Rayon Məhkəməsində hakim Elman Məmmədovun sədrliyi ilə Zümrüd Yağmurun həyat yoldaşı Fuad Qəhrəmanlıya qarşı boşanma ərizəsi əsasında məhkəmə prosesi başa çatıb.**

**Bu barədə "Trend"ə Z.Yağmurun vəkili Zibeydə Sadıqova məlumat verib.**

Vəkil bildirib ki, prosesdə hakim tərəflərə barışmaq üçün vaxt verib: "Biz hakimdən xahiş etdik ki, iddianı təmin etsin və tərəflər arasındakı rəsmi nikah ləğv edilsin. O isə bizim xahişimizi nəzərə almadı və tərəflərə barışmaq üçün 3 ay vaxt verdi. 3 aydan sonra yenidən məhkəmə prosesi keçiriləcək və nikah ləğv olunacaq. Məhkəmə prosesi fevral ayında yenidən keçiriləcək".

Xatırladaq ki, Zümrüd Yağmur AXCP sədrinin sabiq müavini Fuad Qəhrəmanlı ilə nikahının pozulması məqsədilə Abşeron rayon Məhkəməsinə müraciət edib. İddia üzrə məhkəmə prosesi 5 dəfə təxirə salınıb.

# Milli Məclisin buraxılması mexanizmi ən aktual müzakirə mövzusu kimi...

**Noyabrın 28-də baş verən hadisə ölkədə yeni parlament seçkilərinin keçiriləcəyinə şübhə yeri qoymur. Həmin gün Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurası parlamentdə təmsil olunan üzvlərinə parlamentin buraxılması ilə bağlı təşəbbüslə çıxış etməyi tövsiyə edən qərar qəbul edib.**

***Mehman Muradlı:** "Hazırkı proses isə parlamentin daha funksional olması zərurətilə əlaqələndirilir və bunu ölkədə aparılan islahatlara adekvat olan addım kimi əsaslandırırlar"*



Siyasi Şura bu qərarın Prezident İlham Əliyevin islahatlar kursuna və kadr islahatlarına dəstək məqsədilə verildiyini açıqlayıb.

Qeyd edək ki, bu məlumatın elan edilməsindən sonra sosial şəbəkələrdə "Parlament buraxıldı!" kimi fikirlərin yayılması üstünlük təşkil etməyə başladı. Maraqlıdır ki, hətta jurnalistlər, siyasətçilər arasında bu mexanizmin necə baş tuta biləcəyinə dair məlumatsızlığın olması üzə çıxdı. Növbəti gün keçirilən parlament iclasından sonra isə məlum oldu ki, qanunverici orqan hələ bir neçə gün də fəaliyyətini davam etdirib, mühüm qərarlar qəbul edəcək. Məlum olub ki, Milli Məclisin buraxılması barədə məsələ dekabrın 2-də parlamentdə müzakirəyə çıxarılacaq. Bunu Milli Məclisin spikeri Oqtay Əsədov deyib. O bildirib ki, dekabrın 2-də qanunverici orqanın iclası keçiriləcək: "İclasın gündəliyində bir məsələ var. Bu da YAP-ı təmsil edən deputatların Milli Məclisin buraxılması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevə müraciətinin müzakirəsidir. Parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvü olan deputatlar mənə müraciət ediblər. Onlar V çağırış Milli Məclisin buraxılması ilə bağlı növbədənkənar seçkilərin təyin edilməsi üçün Prezident İlham Əliyevə müraciət edilməsi haqqında məsələnin müzakirəyə çıxarılmasını istəyiblər. Mən də bu məsələyə dəstək vermişəm. Dekabrın 2-də gündəlikdə bir məsələ olacaq və bununla bağlı plenar iclas keçiriləcək". Milli Məclisin sədri deyib ki, qanunverici orqanın buraxılması barədə məsələ bütün deputatlara aiddir: "Bu, hər kəsə aiddir, həm siyasi partiyaların üzvlərinə, həm də bitərəf olanlara".

Maraqlıdır, parlamentin buraxılması ilə bağlı hüquqi mexanizm necə tənzimlənir?

Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə bildirdi ki, bu mövzu ilə bağlı bir məlumatsızlıq var: "Sosial şəbəkədə elə yazırlar ki, sanki artıq deputatlar səlahiyyətini itirib. Belə məsələlər hüquqi addımlarla tənzimlənir. YAP-ın qəbul etdiyi qərarı prosesə hazırlıq kimi dəyərləndirə bilərik. Amma bu o demək deyil ki, məsələ bitib. Parlamentin buraxılmasına dair hüquqi norma 2016-cı il referendumunda Konstitusiyaya tətbiq edilib. Bu, "Azərbaycan Respublikası Milli Məclisinin buraxılması" haqda 98-1-ci maddədə əksini tapıb. Həmin normaya görə, əgər il ərzində iki dəfə Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad göstərmirsə və ya Prezident iki dəfə təqdim etdikdən sonra qanunla müəyyən edilmiş müddətdə Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin və Mərkəzi Bankın İdarə Heyətinin kollegial fəaliyyətinə lazımi sayda namizəd təyin etmirsə, 94 və 95-ci maddələrin II, III, IV və 96-cı maddənin V hissəsi və 97-ci maddədə göstərilən öhdəliklərini (bu normalar parlament tərəfindən qanunvericilik funksiyalarının yerinə yetirilməməsi ilə bağlıdır) yerinə yetirmirsə, dövlət başçısı Milli Məclisi buraxır.

Hazırkı proses isə parlamentin daha funksional olması zərurəti ilə əlaqələndirilir və bunu ölkədə aparılan islahatlara adekvat olan addım kimi əsaslandırırlar.

Qeyd edim ki, Milli Məclisin iclaslarının qanuni olması üçün bu iclaslarda ən azı 83 deputatın iştirakı zəruridir. Nəzərə alsaq ki, parlamentdə 70-ə yaxın mandat Yeni Azərbaycan Partiyasına məxsusdur, bu partiyadan olan deputatların kütləvi şəkildə istefa verməsi parlamentin, faktiki olaraq, öz vəzifəsini yerinə yetirə bilməyəcəyi anlamına gələ bilər. Həmin müraciətə baxan Prezident parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə qərar qəbul edəcək. Növbədənkənar seçkilərin tarixi səsvermədən ən azı 60 gün əvvəl təyin olunmalıdır. Lakin nəzərə alsaq ki, seçkilərə hazırlaşmaq üçün müəyyən vaxt lazımdır, o zaman çox güman ki, seçkilər 2020-ci ilin fevral-mart aylarına təyin ediləcək. Yəni proseslərin gedişi yeni seçkilərin keçiriləcəyinə zərrə qədər də olsun şübhə yeri qoymur".

***Məhəmmədəli QƏRİBLİ***

# Siyavuş Novruzov növbəti parlamentə köhnələrdən hansı YAP-çıların düşəcəyinin təhlillərdən sonra aydınlaşa biləcəyini dedi



**Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov parlamentin buraxılması ilə bağlı müraciətin detallarını açıqlayıb və müxalifət düşərgəsində bununla bağlı iddialara münasibət bildirib.**

"Trend"in məlumatına görə, S.Novruzov bildirib ki, YAP-ın parlamentin buraxılması ilə bağlı təşəbbüsü Konstitusiyaya tam uyğundur: "Müxalifətin bir az yaddaş problemi var. Yaddaş probleminə görə nə dediklərini bilmirlər. Elə Müsavat Partiyasının qərargahındakı sonuncu toplantılarında müzakirələrin yekunu olaraq qəbul etdikləri sənədin sonuncu bəndi elə növbədənkənar parlament seçkiləri ilə bağlı bənd olub. Yəni onlar düşünürdülər ki, bəyanat versələr, hakimiyyət həmin məsələdən uzaqlaşacaq, məhz onların bəyanatına görə keçirməyəcək. Onların bəyanatının bizə heç bir aidiyyəti yoxdur".

S.Novruzov əlavə edib ki, nə Şərqin, nə Qərbin, Avropanın, nə də hansısa Avropa strukturunun növbədənkənar parlament seçkilərinə heç bir aidiyyəti yoxdur: "Azərbaycan müstəqil siyasət yeridir və hər hansı bloka qoşulmur. O baxımdan Azərbaycan dövləti öz siyasətini xalqının tələbinə uyğun olaraq qurur. Dünyada praktika belədir ki, müxalifət növbədənkənar seçkiləri önəmli sayır. Siyasi partiyanın işi seçkiyə hazırlaşmaq və orada iştirak etməkdir. Əgər onlar seçkiyə hazır deyillərsə və hazırlaşmayıblarsa, onda fəaliyyətləri nədən ibarətdir? Dəfələrlə şahidi olmuşuq ki, Prezident seçkiləri zamanı namizəd tapa bilmirlər. Namizədliyin irəli sürülməsi prosesi yekunlaşmaq üzrə olanda onlar ya Rusiya vətəndaşı olan Rüstəm İbrahimbəyovu, ya da Cəmil Həsənlini haradansa tapıb gətiriblər. Ona görə də seçkilərdə ən vacib məsələ zamandır".

Millət vəkilinin sözlərinə görə, YAP deputatların 5 illik fəaliyyəti ilə bağlı statistik təhlilini aparır: "Onların parlamentdəki çıxışları, seçiciləri ilə görüşləri, mətbuatla işləməsi, beynəlxalq təşkilatlarda işi, sosial şəbəkələrdə fəaliyyəti və s. təhlil edilir. Buna uyğun olaraq da hər ay hesabat hazırlanaraq partiyada müzakirə olunur. Növbəti seçkilərdə onların təhlil müddətindəki fəaliyyəti nəzərə alınacaq".

S.Novruzov eyni zamanda mətbuatda və sosial şəbəkələrdə növbəti seçkilərdə kimlərin olması ilə bağlı dərc olunan siyahıya da münasibət bildirib. O qeyd edib ki, siyahı havadan götürülmüş siyahıdır: "Hər seçkiöncəsi belə siyahılar dərc olunur. Tərkibin dəyişməsi də məhz seçicilərdən asılıdır".

**Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının son iclasında Azərbaycanın müstəqillik tarixində ilkə imza atılıb. Parlamentdə 72 mandatla mütləq çoxluğu təşkil edən hakim partiya növbədənkənar seçkilərə getməyə qərar verib. Partiya bununla bağlı ölkə Prezidenti İlham Əliyevə müraciət edərək parlamentin buraxılmasını xahiş edib.**

# Radikal müxalifət fövqəladə parlament seçkilərini ənənəvi olaraq "xaricdən hansısa qorxu" ilə əlaqələndirdi...

## *Rasim Quliyev: "Obyektiv təhlil aparmaq gücləri olmadığı üçün, belə saxta nəticələrə gəlirlər"*



Ötən il keçirilən növbədənkənar prezident seçkilərindən sonra ictimaiyyətdə hakimiyyətin parlamenti də yeniləyəcəyi barədə müzakirələr gedirdi. Növbədənkənar seçkilərin keçiriləcəyinə ilk işarə hələ başa çatmaqda olan ilin büdcəsi qəbul olunarkən verilmişdi. Bu il qrafikdə yalnız bələdiyyə seçkilərinin olmasına rəğmən, seçkilərlə bağlı xərclərin təxminən iki dəfə artıq - 90 milyon manat nəzərdə tutulması müzakirələrə yol açmışdı. Çünki, ənənəvi olaraq, bir seçkinin xərcləri 45-50 milyon manat həddini aşmır. Seçki Məcəlləsinə görə, seçkilər elan olunduğu gündən 2 ay müddətinə keçirilir. Bununla təxmin etmək olar ki, növbədənkənar parlament seçkiləri təxminən fevral ayında keçiriləcək. Bu prosesə radikal müxalifət, birmənalı olaraq, mənfi münasibət bəsləyir. Onlar hesab edirlər ki, hakimiyyətin bu gedişi xarici faktordan qorxu əlaməti ilə bağlıdır. Yəni belə mülahizələr irəli sürülür ki, xarici qüvvələrin dəstəyilə burada hansısa siyasi proseslərin baş verməsini ertələmək üçün belə addımın atılması zərurəti ortaya çıxıb. Hakim partiya isə bunu ölkədə gedən islahatlara təkan verə biləcək bir addım kimi səciyyələndirir. Radikal dairələrin ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı irəli sürdükləri versiyanı nə dərəcədə əsaslı saymaq olar?

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, o, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və xalqın rifahının daha da yaxşılaşmasına xidmət edən addımlara belə qiymət verir: "Çox təəssüflər olsun ki, həmin radikalların sırasında Azərbaycanın milli maraqlarını düşünən qüvvə yoxdur. Onları yalnız qrup adlandırmaq olar. Çünki onların qüvvəyə çevrilməsinə hələ çox var. Biz müşahidə edirik ki, həmin qruplar adətən ölkəmizlə bağlı olan taleyüklü mövzuların müzakirəsi zamanı daha da aktivləşirlər. Onlar Azərbaycanın xeyrinə olan bütün prosesləri qaralamaqla məşğul olurlar. Biz bunu yalnız siyasi arenada görmürük. Onların analoji davranışları həm də ölkəmizin evsahibliyi etdiyi mötəbər idman yarışları, mədəniyyət tədbirləri zamanı da baş verib. Son prosesi də həmin yöndən təhlil edirlər. Obyektiv təhlil aparmaq gücləri olmadığı üçün, belə saxta nəticələrə gəlirlər. Ölkədə parlamentin vaxtından əvvəl buraxılması hadisəsinin xarici amillə heç bir əlaqəsi yoxdur. Bilirsiniz ki, istənilən ölkədə islahatların aparılması labüddür. Məsələn, qonşumuz İrana baxın. O böyüklükdə ölkə niyə çalxalanır? Çünki vaxtı çatanda islahatları aparmayıblar. Azərbaycan hakimiyyəti hər zaman islahatlar həyata keçirir. Bu il isə islahatların əhatə dairəsi və sürəti bir qədər geniş və dinamik oldu. Aparılan struktur və kadr islahatları bütün sahələrdə yeniləşməni tələb edir. Parlament bu prosesdən geridə qala bilməzdi. Atılan son addımları hansısa xarici amillə yox, gedən islahatlara verilən dəstək kimi qiymətləndirirəm. Əminəm ki, yeni formalaşacaq parlament daha məhsuldar işləyəcək. Qanunverici orqanın tərkibinin yenilənməsini də aparılan islahatlara tam adekvat addım saya bilərik".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Cənub qonşumuz olan İranın daxilində maraqlı proseslər baş qaldırıb. Teokratik rejimin ən möhkəm dayaqları olan sistemlər ölkənin quruluşunun dəyişilməsi, hətta Prezidentin həbsini tələb edirlər. İranda benzinin bahalaşmasına etiraz olaraq başlayan və bütün ölkəni bürüyən üsyanın yatırılmasından sonra İnqilab Keşikçiləri Korpusunun keçmiş komandanı, hazırda bu korpusun bölmələrindən birinin komandiri olan general Məhəmməd Əli Cəfəri Prezident Həsən Ruhaninin həbsini tələb edib.**

# Şanksiyaların ağır təsir etdiyi İran - Prezidentə həbs, din dövlətdən ayrılsın tələbi...



General Ruhaninin və onun administrasiyasının üzvlərinin məhkəməyə cəlb edilməli olduğunu deyib. Cəfəri ölkəni bürümüş etirazlara görə məsuliyyətin Prezident və administrasiyasının üzərində olduğunu bildirib.

İranda xidmətdə olan generalın Prezidentə qarşı bu cür çıxış etməsi nadir hadisədir. Məhəmməd Əli Cəfəri 2019-cu ilin əvvəllərinə qədər qüdrətli İnqilab Keşikçiləri Korpusuna komandanlıq edib, lakin daha sonra hansısa əməliyyatın uğursuz alınmasına görə vəzifəsi kiçildilib və korpusun bölmələrindən birinə komandir təyin edilib.

Cəfəri Prezident Administrasiyasını bacarıqsızlıqda ittiham edərək deyib ki, hökumətin benzinin bahalaşması barədə son qərarı həm mahiyyətcə, həm icra baxımından uğursuz idi. Çünki hökumət bu addımın xalqın güzəranına təsirini hesablamamışdı və aztəminatlı ailələrin bahalaşmadan zərər çəkməməsi üçün əvvəlcədən tədbirlər görməmişdi.

Qeyd edək ki, İranı idarə edən əsas institutlardan olan ayətullahların da ölkənin idarəetmə sisteminin dəyişdirilməsi ilə bağlı tələb irəli sürdüyü bildirilir. Dünyanın bir sıra nüfuzlu nəşrlərində bu məlumatlar yer alıb. Məlumat verilir ki, adları çəkilməyən bir neçə nüfuzlu ayətullah belə bir tələblə ölkə rəhbərliyinə və dini liderə müraciət edib.

Bütün bu ciddi proseslər bir məsələnin dəqiqləşdirilməsini zəruri edir: İranda nə baş verir?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, ölkəmizin yaxın qonşusu olan İranda doğrudan da maraqlı proseslər yaşanır: "Sirr deyil ki, 1979-cu ildən bəri İranda qərar qəbuletmə piramidasının başında Ali dini lider dayansa da, sözün həqiqi mənasında, "dövlət içində dövlət" olan İslam Keşikçiləri Korpusu, prezident də daxili və xarici siyasət məsələlərində aparıcı söz sahibləridir. ABŞ-da "göyərçinlər" və "qırğılar" adlandırılan qruplar kimi, İran xarici siyasətində də mühafizəkarlar və islahatçılar qanadı proseslərə təsir etmək gücünü qoruyub-saxlamağa çalışır. Onlar arasında ziddiyyətlər, yaxud razılaşma ölkənin daxili və xarici siyasətinin hansı istiqamətdə cərəyan etməsində xüsusi rol oynayır. Bu həm də regional proseslərə, İran-ABŞ, İran-İsrail, İran-Körfəz ölkələri münasibətlərində öz izini buraxmaya bilməz.

Pasadaran emissarlarının kisələrlə dolu pulu təyyarələrdə "Hizbullah" və Yaxın Şərqdəki digər şiə təşkilatlarına çatdırdığı vurğulanır. Təbii ki, bu ilin aprel ayında ABŞ-ın terrorçu təşkilatlar siyahısına daxil etdiyi Pasadaran Prezident Ruhani ilə qarşıdurma şəraitində fəaliyyətini davam etdirir. 1979-cu ildə nizami orduya balans olaraq Ruhulla Xomeyni tərəfindən yaradılan və dini fanatiklərdən təşkil olunmuş "Sepah" indi də Ali dini liderə sadiqdir. Prezident və Ali dini lider arasındakı ziddiyyətlərdə "Sepah" Xamneyinin yanında yer almaqdadır. Lakin artıq "Sepah"ın məğlubedilməzlik stereotipləri də yavaş-yavaş dağılmaqdadır. Əhfazdakı hərbi paradda terror aktı zamanı "Sepah"ın onun qarşısını ala bilməməsi, bir neçə pasadarançının həlak olması bu fikirləri daha da möhkəmlətdi.

Bu günlərdə İran İslam Keşikçiləri Korpusu briqadasının komandirlərindən biri Məhəmməd Əli Cəfərinin Prezident Ruhanini ölkədəki iğtişaşların səbəbkarı kimi məsuliyyətə cəlb etmək çağırışı "Sepah"la Prezident arasında münasibətlərin son dərəcə gərgin həddə çatmasından xəbər verir. Bu yaxınlara qədər Ali dini lider Xamneyi başda olmaqla, ölkənin dini-siyasi elitası "benzin iğtişaşları"nda xarici qüvvələri, ABŞ və İsrailin simasında beynəlxalq imperializm və sionizmi ittiham edirdilər. Lakin, görünür, ölkədaxili siyasi mübarizə o həddə çatıb ki, xarici düşmən axtarışını arxa plana keçirməklə, daxili siyasi qarşıdurma ön plana keçib".

Politoloqun sözlərinə görə, Xamneyinin mötədil Prezident Ruhanini tənqid etməsindən sonra Ali dini liderə tabe olan "Sepah"ın keçmiş komandirlərindən birinin belə bir açıqlaması göstərişin baş ayətullahdan gəldiyinə şübhə yeri qoymur və vəziyyətin gərginləşəcəyini deməyə əsas verir: "Doğrudur, Ruhani prezidentliyə namizəd olanda da Xamneyinin öz namizədi var idi və Ali dini lider indiki Prezidentin bu vəzifəyə gəlməsini istəmirdi. Lakin Ruhaninin prezident seçildikdən sonra "Sepah"ın səlahiyyətlərini məhdudlaşdırmaq planları onlar arasında münasibətləri son həddə qədər gərginləşdirdi. İndiki sanksiyalar və Yaxın Şərqdəki proseslər fonunda, "Sepah"ın yerinin möhkəmlənəcəyini, ABŞ-la danışıqlar tərəfdarı olan Prezidentin isə mövqelərinin daha da zəifləyəcəyini proqnozlaşdırmaq olar".

***Məhəmmədəli QƏRİBLİ***

**Yaxın tezlikdə Avropanın enerji bazarında Azərbaycanın iştirakı ilə mühüm yeniliklərə start veriləcək. Söhbət Azərbaycan qazının Avropaya çatdırılması istiqamətində görülən işlərin artıq yekunlaşmaq üzrə olmasından gedir. Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə bu məsələyə toxunan Prezident İlham Əliyev qeyd edir:**

# Azərbaycan Xəzər qazını Avropaya çatdırmaq kimi tarixi missiyanı da uğurla icra etdi

"Sözsüz ki, enerji təhlükəsizliyi avropalı tərəfdaşlarla əməkdaşlığın ənənəvi mövzusudur. Biz bütün əsas transmilli enerji layihələrimizi uğurla həyata keçirmişik və çox tezliklə - bir neçə günə bizim təbii qaz fiziki olaraq artıq Avropa İttifaqının sərhədində olacaq. Bu, bir sıra ölkələr və həmçinin Avropa İttifaqı arasında hərtərəfli əməkdaşlıq sayəsində əldə olunmuş çox nəzərəçarpan nailiyyətdir".

Bu fonda qeyd edək ki, Azərbaycan qazını Avropa bazarlarına çatdıracaq layihənin də mühüm tərkib hissəsi olan TANAP boru kəmərinin ikinci fazası da noyabrın 30-da istifadəyə veriləcək. Xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin əsas seqmenti olan TANAP boru kəməri bu il iyulun 1-dən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli isə, planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki törəməsi - "SOCAR Turkey Enerji A.Ş."nin xarici əlaqələr üzrə direktoru Murat LeKompte isə bildirir ki, TANAP kəmərinin ikinci fazasının noyabrın 30-a planlaşdırılan açılış mərasimi üçün Türkiyənin Ədirnə şəhərinin İpsala qəsəbəsində son hazırlıqlar da başa çatıb. O bildirib ki, 1850 kilometr uzunluğunda olan TANAP Türkiyədə 20 şəhərdən və 67 qəsəbədən keçərək, ölkənin Şərqi ilə Qərbini bir-birinə bağlayır: "İki çıxış nöqtəsi olan boru kəmərinin ilk çıxışı Əskişəhərdə, ikinci çıxışı isə Ədirnə şərhədindədir. İndi isə boru kəmərinin ikinci, Avropaya qaz nəql etmək üçün nəzərdə tutulan hissəsi tamamlanıb və onun açılışını həyata keçirəcəyik. TANAP-ın illik ötürücülük gücü 16 milyard kubmetrdir. TANAP tam gücü ilə çalışdığı zaman bu göstəricinin 6 milyard kubmetri Türkiyə bazarına veriləcək, 10 milyard kubmetri isə hazırda olduğumuz bu yerdən Avropaya ixrac ediləcək. Bu, tarixi bir gündür. Tarixdə ilk dəfə Xəzər qazı, Azərbaycanın təbii qazı Avropaya nəql ediləcək".

Türkiyəli ekspert Ərdal Qaragöl də bildirir ki, Azərbaycanla Türkiyə arasında həyata keçirilən TANAP layihəsi və bütövlükdə enerji əməkdaşlığı, ikitərəfli uğurlu münasibətlər həm region ölkələri üçün, həm də enerji sərvətlərinə malik bütün ölkələr üçün nümunədir: "TANAP həm Türkiyənin enerji təhlükəsizliyinə, həm də Avropa enerji şəbəkəsinə qoşulmaqla Avropa İttifaqı ölkələrinə enerji daşıyıcılarının tədarükünü şaxələndirərək regionun enerji tarazlığına mühüm töhfə vermiş olur". O, Türkiyənin coğrafi mövqeyinə görə Azərbaycan üçün Avropaya enerji dəhlizi rolunu yerinə yetirdiyini deyib: "Türkiyənin coğrafi mövqeyini nəzərə alan Azərbaycan bu ölkə ərazisindən öz enerji sərvətlərini nəql etməklə düzgün qərar verərək, eyni zamanda öz enerji təhlükəsizliyini də təmin edib. Beləliklə, bu layihə sayəsində Azərbaycan region ölkələri ilə rəqabət aparmaq imkanı əldə edib.

Digər tərəfdən, TAP və TANAP kimi layihələr vasitəsilə Türkiyə enerji habına çevrilmək, "enerji İpək Yolu" rolunu oynamaq məqsədinə bir addım da yaxınlaşır".

Türkiyəli ekspertin fikrincə, TANAP kəmərinin Türkiyənin, Yaxın Şərqin, Avropanın ən uzun və ən böyük diametrə malik boru kəməri olaraq tarixə düşməsi də böyük əhəmiyyət daşıyır: "Çoxşaxəli və səmərəli layihə olan TANAP Türkiyə ilə Azərbaycan arasında bir çox sahələrdə əməkdaşlıq üçün yeni-yeni imkanlar açacaq. İki ölkə arasında əməkdaşlıq, o cümlədən enerji sahəsindəki birgə layihələr bütövlükdə region üçün faydalıdır. Bu boru kəməri Xəzər hövzəsində zəngin enerji sərvətlərinə malik başqa ölkələr üçün də Avropaya pəncərə olacaq".

Beləliklə, hesab edilir ki, TANAP və onun davamı olan TAP enerji layihələri Azərbaycanla Türkiyənin regionda strateji əhəmiyyətini daha da artırır. Yeri gəlmişkən qeyd edək ki, Avropada da Azərbaycan qazının qəbuluna intensiv hazırlıq görülür. Artıq TAP kəməri də yekunlaşmaq üzrədir. Bundan başqa, Azərbaycan təbii qazını Bolqarıstana ötürəcək Yunanıstan-Bolqarıstan İnterkonnektoru layihəsinin də tezləşdirilib həyata keçirilməsi nəticəsində Bolqarıstan regionun enerji liderinə çevriləcək. Bolqarıstanın baş naziri Boyko Borisov bildirir ki, bu, ölkəsinin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayacaq. Qeyd edək ki, TAP-a qoşulacaq Yunanıstan-Bolqarıstan İnterkonnektoru vasitəsilə Bolqarıstan Azərbaycandan ildə 1 milyard kubmetr təbii qaz idxal edəcək. Belə ki, "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz-2" yatağından bu miqdarda qaz almaq üçün "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Azərbaycan təbii qazı hesabına Bolqarıstan qaz tələbatının 25-30 faizini ödəyə biləcək. Bundan başqa, artıq bir sıra şərqi Avropa ölkələri də Azərbaycan qazına xüsusi maraq göstərməyə başlayıb. Eləcə də o da faktdır ki, indiki halda ümumilikdə "Cənub Qaz Dəhlizi" enerji resurslarının şaxələndirilməsi işində bütün Avropa üçün çox önəmli layihədir. Bu layihədə həm mənbələrin, həm də marşrutların şaxələndirilməsi baş tutur. Belə ki, Azərbaycan qazı Avropa üçün yeni mənbədir.




Bununla Avropanın enerji təhlükəsizliyi daha dolğun və tam şəkildə təmin ediləcək. "Cənub Qaz Dəhlizi" bu mənada Azərbaycanın mövqeyini gücləndirməklə yanaşı, onu geoiqtisadi və geosiyasi məkanda daha güclü söz sahibinə çevirir. Xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin icrasında 7 ölkə, yəni Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir. Gələn il isə üç Balkan ölkəsi olan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənir. Bununla enerji layihəsində iştirak edən ölkələrin sayı daha da artır.

***Nahid SALAYEV***

# Paşinyanın KTMT sistemində Azərbaycana qarşı uğursuz demarşı - "Azərbaycan IŞİD-i bölgəyə gətirəcək"...

***Hatəm Cabbarlı:** "Onun terrorçuların bölgəyə gələ biləcəyi ilə bağlı irəli sürdüyü tezis də siyasi manipulyasiyadan xəbər verir"*

**Ermənistanın Baş naziri Nikol Paşinyan Bişkekdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) iclasına qatılıb, iclasda Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan dövlət başçıları da iştirak ediblər. Erməni KİV-nin verdiyi məlumata görə, KTMT üzvləri beynəlxalq və regional təhlükəsizlik, təşkilat daxilində əməkdaşlıq və beynəlxalq aləmdə üzvlərin qarşılıqlı əlaqələri məsələlərini müzakirə ediblər.**

N.Paşinyan çıxışında qeyd edib ki, Ermənistan KTMT-nin səmərəliliyinin daha da yüksəldilməsi və beynəlxalq nüfuzunun möhkəmlənməsi işinə töhfələrini vermək niyyətindədir. O, üzv ölkələr arasında əməkdaşlığın inkişafı üçün əhəmiyyətli bir potensial olduğunu gördüyünü vurğulayıb.

Bundan sonra Paşinyan ölkəsində və bölgədəki təhlükəsizlik məsələlərinə toxunub, Qarabağ münaqişəsinin həlli prosesindən danışıb. Ermənistan hökumətinin başçısı militarist istəklərin tamamilə ümidsiz olduğuna və sülh danışıqlarına, problemin sülh yolu ilə həllinə alternativ variantın olmadığına əminliyini bildirib. Bundan əlavə, N.Paşinyan qeyd edib ki, Azərbaycan rəhbərliyinin mövqeyi təkcə Cənubi Qafqazın deyil, həm də KTMT ölkələrinin təhlükəsizliyini təhdid edir: "Düşünürəm ki, yeni eskalasiyanın fəlakətli nəticələri Cənubi Qafqazın hüdudlarından kənara çıxacaq. Müharibə əzmində olan Azərbaycan Suriyada torpaq itirərək fəaliyyətlərini genişləndirmək üçün yeni ərazilər axtaran terrorçulara əlverişli bir plasdarm ola bilər. Eyni zamanda, Azərbaycan coğrafi baxımdan çox əlverişli bir platformadır ki, onun vasitəsilə ekstremistlər öz fəaliyyətlərini bütün istiqamətlərdə - cənubda İran, şimalda Rusiya, qərbdə Gürcüstan və şərqdə Orta Asiya ölkələrinə yaya bilərlər".

Eyni zamanda, N.Paşinyan qeyd edib ki, KTMT üzvləri Qarabağ ətrafında yeni bir eskalasiyanın qarşısını almaq üçün lazımi vasitələrə malikdirlər. Onun sözlərinə görə, mümkün eskalasiyanın qarşısını almaq üçün KTMT üzv dövlətləri təhlükəsizliyi qorumaq maraqlarından irəli gələrək, Azərbaycanın yeni silah əldə etmək istəklərini cavabsız qoymalıdırlar: "Biz sülh istəyimizdə tam səmimiyik və təqdim etdiyim konsepsiya əsasında münaqişənin sülh yolu ilə həlli üçün konstruktiv dialoqa hazırıq. Danışıqları KTMT-nin dəfələrlə dəstəklədiyi ATƏT-in Minsk Qrupu həmsədrlərinin beynəlxalq səviyyədə təsdiq edilmiş yeganə danışıq formatı çərçivəsində davam etdirəcəyik. Bu kontekstdə Minsk Qrupunun rusiyalı həmsədrliyinə xüsusi minnətdarlığımı bildirmək istəyirəm".

Göründüyü kimi, Paşinyan KTMT ölkələrini aldatmağa çalışıb ki, guya Azərbaycan öz haqqını tələb edib, hərbi əməliyyatlara başlayacağı təqdirdə bu region Yaxın Şərqdən gələn terrorçular üçün plasdarma çevrilə bilər. Digər tərəfdən isə KTMT ölkələrini Azərbaycana silah satmamağa çağırıb. Onun bu mövqeyini necə xarakterizə etmək olar?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyanın Bişkekdə KTMT tədbirində etdiyi çıxış qətiyyən günün reallığını əks etdirmir: "Ermənistan hökuməti KTMT-yə üzv olduğu zamandan bəri müxtəlif vəsilələrlə çalışır ki, həmin təsisatı Dağlıq Qarabağ münaqişəsində tərəf olaraq cəlb etsin. Bu yöndə kifayət qədər siyasi səy də olub. Ancaq zaman-zaman KTMT-dən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlər səslənsə də, həmin mövqelərin heç birində münaqişədə tərəf sayılacaq mövqeyə rast gəlməmişik. Paşinyanın son toplantıda səsləndirdiyi fikirlər reallıqdan çox uzaqdır. Onun hətta münaqişənin alovlanacağı təqdirdə nəinki Cənubi Qafqazı, hətta KTMT ölkələrini hədələməsi psixoloji təsir taktikasından başqa nəsə deyil. O həm də KTMT ölkələrinin Azərbaycanı silahlandırmasından narahat olduqlarını bildirir. Ancaq rəqəmlər tamamilə başqa şeyi deyir. Ermənistan dünya ölkələri arasındakı silahlanma indeksinə görə 2007-2009-cu ildə 8-ci, 2012-2014-cü illərdə 4-cü, 2013-cü ildə isə 3-cü yerdə olub. Almaniyada fəaliyyət göstərən nüfuzlu bir təşkilatın hazırladığı məruzəyə görə, Ermənistan Avropada gedən silahlanma yarışında birinci yerdədir. Bu yarışda Ermənistan 3 ildir liderliyi əldən vermir. Məruzədə hər 1000 nəfərə düşən hərbçı sayı, ümumdaxili məhsuldan silahlanmaya ayrılan xərclər, ordunun say tərkibi, ağır silahların sayı nəzərə alınır. Rəqəmlər və statistika bunu dediyi halda, Paşinyanın KTMT tribunasından Azərbaycanı sürətli silahlanmada günahlandırması heç bir məntiqə sığmır. Onun terrorçuların bölgəyə gələ biləcəyi ilə bağlı irəli sürdüyü tezis də siyasi manipulyasiyadan xəbər verir. Bununla o, Dağlıq Qarabağ konfliktinin əsl mahiyyətini gizlətməyə çalışır. Onlar bununla öz terrorçu mahiyyətlərini pərdələyirlər. Yaxın Şərq, xüsusilə də Suriyada olan terrorçular arasında əsasən ermənilər çoxluq təşkil edir. Həmin bölgə həm də ASALA-nın oylağı olub. Dağlıq Qarabağ münaqişəsi başlayarsa, terrorçuların gəlmə ehtimalı erməni tərəflə əlaqəli ola bilər. Çünki onlar dövlət qurumlarının nəzarət edə bilmədiyi yerlərə toplaşırlar. Bu da Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ bölgəsi ola bilər. Yəni erməni terrorçular İrəvanın rəsmi dəstəyilə ora doluşa bilər. Ermənistan bütün gücü ilə çalışır ki, KTMT-ni də bu provokasiyaya cəlb etsin. Amma faydası yoxdur. Çünki orada təmsil olunan ölkələrin hər birinin Azərbaycanla bütün istiqamətlər üzrə yaxşı münasibətləri var. Rusiya və Belarus dəfələrlə Ermənistanın silah satışı ilə bağlı iradlarına cavab da veriblər ki, bu onların öz işidir. Hesab edirəm ki, Bişkek çıxışını da Paşinyanın növbəti uğursuzluğu kimi qiymətləndirmək olar. Ermənistan güclü dövlət olsaydı, bəlkə də həmin tələbi reallaşdıra bilərdi. Amma onun hazırda silah satan ölkələrə heç bir təzyiq rıçaqı yoxdur".




*"Rusiya və Belarus dəfələrlə Ermənistanın silah satışı ilə bağlı iradlarına cavab da veriblər ki, bu onların öz işidir"*

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan yenə KTMT-də Ermənistanı pis vəziyyətdə qoydu

**Bu gün heç kimə sirr deyil ki, Nikol Paşinyan və komandasının MDB, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və Avrasiya İqtisadi İttifaqında mövqeyi kifayət qədər sarsılmış durumdadır. Bu xüsusda daha çox diqqət cəlb edən məqam isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi İttifaqı ilə bağlıdır.**

Məsələ burasındadır ki, Azərbaycan bu iki təşkilatda təmsil olunmasa da, burada Bakının mövqeyi İrəvanla müqayisədə daha çox nəzərə alınır. Bunu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Bişkek sammiti də növbəti dəfə təsdiq etdi.

Əvvəla qeyd edək ki, Ermənistanın KTMT-də yaratdığı süni problem öz həllini tapıb. Belə ki, Belarus Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas təşkilatın Bişkekdə keçirilən iclasında baş katib vəzifəsinə təsdiq olunub. O, vəzifəsinin icrasına 2020-ci il yanvarın 1-dən başlayacaq. Xatırladaq ki, erməni general Yuri Xaçaturova 1 mart 2008-ciil hadisələrinə görə ittiham elan olunmasından və onun geri çağırılmasından sonra KTMT-də baş katib postu boş qalıb. Ermənistan nümayəndəsi 2020-ci ilədək seçildiyi halda, yalnız ilyarım baş katib vəzifəsini tuta bilib. Hələ ötən ildən Ermənistan iddia edirdi ki, Xaçaturovun gedişindən sonra da bu vəzifəni məhz erməni nümayəndəsi tutmalıdır. Amma sonunda KTMT-yə üzv dövlətlər erməniləri kompromisə məcbur etmişdilər və həmin vəzifəni icra etmək rusiyalı Valeri Semerikova həvalə edilmişdi. Bişkekdə isə ermənilərin KTMT-də yaratdığı süni problem artıq öz həllini birdəfəlik tapıb. KTMT liderləri Belarus nümayəndəsi Stanislav Zasın təşkilatın baş katibi vəzifəsinə təyinatını təsdiqləyiblər. Xatırladaq ki, Stanislav Zas 1985-ci ildə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbini bitirib. Belarusun Azərbaycana münasibəti və Stanislav Zasın ölkəmizə münasibətdə yüksək mövqeyi artıq ermənilər üçün indidən narahatlıq yaradır. Məsələn, erməni hərbi ekspert Vaan Ambarsumyan bildirir ki, Stanislav Zasın KTMT-nin baş katibi seçilməsindən sonra Ermənistanın bu quruma ümidlərinin üzərindən xətt çəkmək olar. O iddia edir ki, KTMT-nin baş katibi Ermənistanın nümayəndəsi olan zaman qoşunların təmas xəttindəki hər bir insident dərhal qeydə alınır və təşkilatın qarşısında qaldırılırdı: "Bu hal Ermənistanın maraqlarına xidmət edirdi Amma son aylarda bu insidentləri heç kəs qeydə almır, ona reaksiya vermir. Gələn ildən KTMT-nin baş katibinin vəzifəsini Belarus nümayəndəsi Stanislav Zas icra edəcək və Azərbaycan onun ikinci vətəni sayılır.

Xatırladım ki, Belarusun Azərbaycana "Polonez" tipli komplekslər satmasının vasitəçisi və təşəbbüskarı məhz Zas olub. Bu komplekslər Ermənistanın bütün ərazisini vurmağa qadirdir. Stanislav Zas hərbi təhsilini Bakıda alıb. Onun Azərbaycanın müdafiə naziri, Silahlı Qüvvələrin Baş Qərargah rəisilə isti münasibətləri var". Beləliklə, baş verənlər Ermənistanın KTMT sıralarında mövqeyinin sürətlə sarsıldığını göstərir. Rusiyalı hərbi ekspert Aleksandr Xramçixin isə Ermənistanın Rusiya ilə pisləşən münasibətlərinin də proseslərə əhəmiyyətli təsir göstərdiyini vurğulayır. O, Dağlıq Qarabağda hərbi fəaliyyətlər yenilənəcəyi halda KTMT-nin konfliktə müdaxilə etməyəcəyini bildirib: "KTMT yalnız Ermənistan ərazisinə hücuma məruz qalacağı halda reaksiya verəcək. Ehtiyac yaranacağı təqdirdə Ermənistan gərək rəsmi şəkildə KTMT-yə müraciət etsin. KTMT-nin bütün üzvləri üçün belə dəstəyin verilib-verilməyəcəyini demək çətindir, amma Rusiya KTMT çərçivəsində öz öhdəliklərini mütləq icra edəcək. Lakin aydındır ki, yalnız Ermənistan üçün hansısa təhdid olduğu təqdirdə. Amma bu istiqamətdə də gərginliklər artır. Məsələn, 102-ci bazanın Ermənistandan çıxarılması Ermənistanda gündəlikdə qalır". Xramçixin Rusiya bazasının Ermənistandan çıxarılmasının İrəvanın daxili işi olduğunu vurğulayıb: "Bu reallaşa bilər. Bundan sonra, məncə, Ermənistan 100% Qarabağ məsələsində daha tez uduzacaq".

Bunlarla yanaşı, KTMT-nin Bişkek sammitində diqqət çəkən daha bir məqam Nikol Paşinyanın çıxışı olub. Burada o bildirib ki, Qarabağ münaqişəsinin eskalasiyasının qarşısını almaq üçün KTMT üzvləri Azərbaycanın yeni silah tələblərini cavabsız buraxmalıdır. Rus hərbi ekspert Aleksandr Tixanski bildirir ki, əslində, bununla Paşinyan növbəti dəfə özünü KTMT-də gülünc duruma salıb:"Əvvəla, Azərbaycan aldığı silahların bazar qiyməti ilə pulunu ödəyir və bu da Rusiyanı, Belarusu onunla hərbi əməkdaşlığını daha da dərinləşdirməkdə xüsusilə maraqlı edir. Digər tərəfdən, Ermənistan kimdir ki, KTMT üzvlərinin kimə silah satmalı olduğunu müəyyənləşdirsin? Paşinyan bu xüsusda fikirlər səsləndirməklə liderlər qarşısında yenə özünü gülünc vəziyyətə salır. Bu onun siyasi savadsızlığını növbəti dəfə ortaya qoyur. Digər tərəfdən faktdır ki, Ermənistan istisna olmaqla, bütün KTMT üzvləri Azərbaycanı təşkilatın sıralarında görmək istəyir". Bütün bunlar o deməkdir ki, KTMT üzvləri, Ermənistanın mövqeyindən asılı olmayaraq, Azərbaycana silah satışını davam etdirəcək. İrəvan Dövlət Universitetinin siyasi institutlar və proseslər kafedrasının müdiri, siyasi elmlər doktoru, professor Qarik Keryan bunu Azərbaycanın əhəmiyyəti ilə izah edir. Keryanın sözlərinə görə, Azərbaycan hər an durmadan Rusiyaya xatırladır ki, Bakının Avrasiya məkanında Moskva ilə əməkdaşlığını daha çox dərinləşdirməsi yalnız Qarabağ məsələsinin həlli ilə bağlıdır: "Bu, Rusiya üçün başlıca problemdir, çünki Rusiyanın xarici siyasətinin məqsədi bu gün postsovet məkanında nüfuzunu bərpa etməkdir, bu halqada isə Azərbaycan vacib, əsas əhəmiyyətə malikdir. Burdan güman etmək olar ki, Qarabağ məsələsində hansısa konkret təklif var və bu təklif Ermənistan, Rusiya və Azərbaycan arasında müzakirə mövzusu ola bilər. Mümkündür ki, Rusiya Qarabağ məsələsini həll etməyə çalışır və Azərbaycana da səbrlə silahlanmaq lazımdır. Ermənistanın etirazlarına baxmayaraq, bu silahı da Azərbaycana daha çox Rusiya satır".

Məlumdur ki, Azərbaycan Rusiya silahlarının ənənəvi alıcısıdır. Nəticədə Azərbaycan ordusunun arsenalında indi Rusiyadan alınmış müasir T-90 tankları, özüyeriyən "Msta-S" haubitsaları, S-300 zenit sistemləri və digərləri mövcuddur. Lakin Rusiyada Azərbaycan ordusunu gücləndirə biləcək yeni silah növləri də var. Bu siyahıda ilk cərgəni TOS-1A "Solntsepek" ağır odsaçan sisteminə vermək olar. Azərbaycan ordusunun silahlanmasında 24 belə maşın var, indi isə onlar üçün yeni istilik təzyiqli döyüş sursatları hazırlanıb. Onların bir yaylım atəşi 40 min kvadrat metrədək ərazini örtür, istilik təzyiqli döyüş sursatı isə 3000 dərəcəyə yaxın temperatur yaradır. Yeni istilik təzyiqli döyüş sursatları partlayışların həcmini əhəmiyyəti dərəcədə artırmağa imkan verir. Azərbaycan artıq bu silaha maraq göstərir. Rusiyanın yeni raket vasitələri də böyük maraq doğurur. Onlardan biri olan "Yermak" orta və kiçik mənzilli yeni raket kompleksi düşmənin mobil qruplaşmalar və yerüstü obyektləri hədəf qismində seçərək endirdiyi zərbələrə qarşı etibarlı müdafiə təmin edir. "Yermak"da atış qurğuları, hədəflərin aşkarlanması aparatı və çox mobil sistem bir araya gətirilib. Taktiki-texniki xüsusiyyətlərə əsasən, "Yermak" aerodinamik hədəfləri 250 kilometr məsafədə aşkarlamağa qadirdir. O, eyni anda 48 hədəfə atəş açmağa qadirdir. Rusiyanın "Tayfun-M" diversiya əleyhinə döyüş maşınları da diqqəti çəkir. Onlar radar, optik və infraqırmızı diapazonlarda mövqe və ərazilərə nəzarət etmək, həmçinin düşmənin diversiya-kəşfiyyat qruplarını məhv etmək təyinatlıdır. Bu və digər yeni silahlar, xüsusən də Su-30 və Su-35 təyyarələri də ölkəmizin maraq dairəsindədir. Ermənistanın "1in.am" saytı isə qeyd edir ki, Rusiya yeni müasir silahlarını həm birbaşa, həm də dolayı yolla Azərbaycana satmağa hazırdır və bu məsələdə İrəvanın narahatlığı onun zərrə qədər də vecinə deyil. Qeyd olunur ki, İrəvan Rusiyadan Su-30 qırıcılarını almağa çalışdığı, amma bunun hələ nə vaxt reallaşacağının bilinmədiyi bir vaxtda Bakı daha üstün olan Su-35 təyyarələrinə yiyələnə bilər: "Problem də ondadır ki, Ermənistan özünün yeni müdafiə strategiyasında əsasında hava hakimiyyəti duran hücum strategiyasına keçdiyini bəyan edib. Ermənistan buna nail olmaq üçün də Rusiyadan çoxfunksiyalı Su-30 təyyarələri alır, onların ilk partiyasının gəlişi 2020-ci ilin yanvar ayında gözlənilir. Amma bunun o vaxt reallaşmasına da tam təminat yoxdur. Hələ ilkin mərhələdə bir sıra rus ekspertlərində erməni-rus anlaşmasının mümkünlüyü haqqında belə bir fikir vardı: Moskva bu təyyarələri İrəvana ona görə satır ki, sonra Bakıya Su-35-ləri satsın. Yeri gəlmişkən, rus hərbi-sənayeçiləri onların Bakıya tədarük edilməsinə hazırlıq haqqında da danışırdılar".

Belarusdan olan hərbi ekspert Leonid Spatkay da ölkəsinin Azərbaycana yeni silahlar satmağa hazır olduğunu vurğulayır. O bildirir ki, müasir silahlara malik Azərbaycan ordusu Qarabağda istənilən nəticəyə asanlıqla nail ola bilər: "Belarus və Rusiya Ermənistanı KTMT-dən qovar, nəinki Azərbaycanla hərbi-texniki əməkdaşlığı pozacaq addım atarlar. Bu baxımdan, Belarusun Azərbaycana təklif edəcəyi bir çox şey var. Bu yalnız "Polonez" hava hücumundan müdafiə sistemləri ilə bağlı deyil, Belarus Azərbaycana istənilən pilotsuz uçan aparatları (PUA) zərərsizləşdirmək gücündə olan silahları da sata bilər. Azərbaycanın hazırda malik olduğu hərbi texnika, əslində onun Ermənistan üzərində böyük üstünlük əldə etməsinə gətirib çıxarıb. Aydındır ki, Qarabağ danışıqları nəticəsiz qaldığı halda bu texnikadan istifadə olunacaq. Hadisələr də elə bu istiqamətdə inkişaf edir".

Bütün bunlar Azərbaycanın Ermənistanla müqayisədə nə qədər üstün mövqedə olduğunu bir daha nümayiş etdirir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Azərbaycan Prezidentinin Bakı Dövlət Universitetinin 100 illik yubileyində gənc nəsillə bağlı səsləndirdiyi fikirlər, onların üzərinə düşən vəzifələr haqqında verdiyi dəyərli tövsiyələr, onlar qarşısında qoyduğu tələblər gənclərə yeni üfüqlər açır.**

# Prezidentin gənclərə "diplom əsas deyil, bilikli olun" çağırışı - cəmiyyətimizin intellektual nüvə məsələsi...



## *İlqar Orucov: "Gənclər cənab Prezidentin onlara yönəlik çağırışlarının məsuliyyətini dərk edirlər"*

Ölkə başçısının çıxışında gənc tələbələrə xitabən söylədiyi "...Tələbələrə də sözüm odur ki, bilikli olsunlar. Bugünkü dünyada tanışlıqla, tapşırıqla oxumaq mümkün deyil. Sovet vaxtında belə bir söz var idi: "tapş", o, instituta "tapşla" daxil oldu. Əvvəllər Sovet dövründə əsas məqsəd diplom almaq idi. Evlənmək üçün, yəni elçiliyə getmək üçün diplomu var, yoxsa yox? Hə varsa, onda markası artır. Diplom heç nədir, bilin. Əgər bilik olmasa, savad olmasa, müasir dünyada bu, əhəmiyyətsiz bir şeydir. Bilik olmalıdır" fikirlər gənclərin biliyə, elmə bağlı olmasını şərtləndirir.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, ölkə başçısının BDU-nun 100 illiyi münasibətilə etdiyi çıxış bütün parametrlərinə görə çox tarixi bir çıxış idi. "Eyni zamanda, Prezidentin çıxışında həm gəncliyə, həm ziyalılara, həm ali məktəb müəllimlərinə, bütövlükdə isə ölkə ictimaiyyətinə yönəlik çağırışlar vardı və bütün cəmiyyət bu çağırışdan özünə aid çox şey əxz edə bildi. Bu çağırışlardan biri də Azərbaycan gənclərinin savadlı, bilikli olması, yaxşı oxuması, diplom xatirinə oxumaması, gələcəkdə yaxşı mütəxəssis olması ilə bağlı oldu. Bu çağırışda çox ciddi mesajlar var. Bu çağırış bizim bu günümüzlə və gələcəyimizlə birbaşa bağlı olan, səsləşən, gənclərin gələcəyə düzgün istiqamətlənməsində çox vacib rola malik olan bir mesajdır. Bizim yaşadığımız dövr dəyişikliklərlə zəngindir, çox dəyişiklik sürətlə baş verir. Müasir dövrün tələblərinə uyğun olaraq, yeni çağırışlara cavab verən mütəxəssis olmaq daha çox tələb olunur. Tutalım, insanlar Sovet dövründə diplom xatirinə oxuyub hansısa bir işdə çalışmalı olurdu. O zaman onun mənfi nəticəsi idi ki, ali məktəblərə qəbul prosesində neqativlər vardı. Amma indiki dövrdə isə diplom xatirinə oxumaq zamanı boşa xərcləmək deməkdir. Cənab Prezident gənclərə bunu tövsiyə edir ki, zamanınızı səmərəli xərcləyin, elmli, bilikli olun, sizin hansısa bir mövqe tutmağınız üçün əsas olan diplom yox, qazandığınız biliklərdir. Əlbəttə, diplom əldə edib savad əldə etməmək, birmənalı olaraq, indiki dövrlə səsləşmir, müasir dövrümüz üçün spesifik deyil. O mənada ki, Azərbaycan gəncləri çiyinlərini dövlətin gələcəyinin altına vermək istəyirlərsə, onlar mütləq şəkildə savadlı, bilikli, çağırışlara, dəyişikliklərə hazır olmalıdırlar. Hesab edirəm ki, gənclər cənab Prezidentin bu fikirlərindən özləri üçün nəticə çıxaracaqlar" - deyə qeyd edən İ.Orucov bildirdi ki, bu çağırış Azərbaycan gənclərinin öz gələcəklərini savadla, elmlə bağlamasına yönəlik bir çağırışdır.

İ.Orucovun sözlərinə görə, Prezidentin gənclərə sözü odur ki, müasir əmək bazarı rəqabətədavamlı olan, çox bilikli kadrlar tələb edir, Azərbaycan gəncləri də öz bilikləri ilə bu bazarda özlərinə yer tutmalıdırlar: "Prezident bununla gənclərə tövsiyə edir ki, gələcəkdə əmək bazarının şərtləri, tələbləri daha sərt olacaq və gənclərimiz buna hazır olmalıdırlar. Hər bir gənc öz üzərində məqsədli şəkildə çalışmalıdır, uğur hər bir insanın nəyi necə öyrənməsindən asılıdır. Bu baxımdan, əlbəttə ki, mütləq şəkildə bizim gənclər müasir dövrün tələblərini anlamalı və dərk etməli, bunun məsuliyyətini öz üzərlərində hiss etməlidirlər. Ümumiyyətlə, təhsilə qoyulan xərc həmişə investisiya sayılıb, bu isə daha etibarlıdır, bilavasitə gələcəkdə bu sahəyə qoyulan vəsaitlə daha çox vəsait əldə etmək olar. Bu baxımdan, ağıllı gənclər prosesi dərk edirlər. Fikirləşirəm ki, gənclər cənab Prezidentin onlara yönəlik çağırışlarının məsuliyyətini dərk edirlər" - deyə İ.Orucov vurğuladı.

*İradə SARIYEVA*

**Azərbaycan torpaqlarını uzun illərdir işğal altında saxlayan Ermənistan bütün istiqamətlərdə ölkəmizə qarşı təxribatla məşğul olur. Ermənistanın Azərbaycan təbiətinə vurduğu ziyan isə əvəzi ödənməyən bir zərərdir. Məlum olduğu kimi, ermənilər uzun illərdir transsərhəd çayları çirkləndirməklə məşğul olurlar.**

# Ermənistan transsərhəd çaylarla bütün regionu zəhərləyir...



## *Ramiz Məmmədov: "Beynəlxalq qurumların qəbul etdiyi qərarlara Ermənistanın əhəmiyyət verməməsinə gəlincə..."*

## *Nəriman Paşayev: "Ermənistandan Azərbaycana axan çaylar ölkəmizə çox böyük tullantılar gətirir"*

Ermənistanda fəaliyyət göstərən "Metsamor" Atom Elekrtik Stansiyasının, eləcə də istismar müddəti başa çatmış digər müəssisələrin çirkab suları Göyçə gölü ilə yanaşı, həm də transsərhəd çaylara axıdılır.

Onu da vurğulayaq ki, bir sıra mütəxəssislər hesab edirlər ki, Ermənistan qoşulduğu beynəlxalq qurumların transsərhəd çayları ilə bağlı razılaşmasını ciddi şəkildə pozur.

Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun Azərbaycanın iqtisadi və siyasi coğrafiyası şöbəsinin müdiri, coğrafiya üzrə elmlər doktoru Nəriman Paşayevin sözlərinə görə, Ermənistanın mədən tullantılarını Araz çayına axıtması beynəlxalq sənədlərdən irəli gələn tələblərə zidd addımdır. "Həm Azərbaycan, həm də İran Ermənistan tərəfindən mədən tullantılarının Araz çayına axıdılmasından narahatdır. Ermənistandan Azərbaycana axan çaylar ölkəmizə çox böyük tullantılar gətirirlər. Ermənistandan axan çayların əksəriyyəti Kür çayına, bir hissəsi Araz çayına qovuşur. Araz da məlumdur ki, Sabirabad rayonunda Kürə qovuşur. Ona görə də Ermənistandan axıdılan tullantılar həm Kür, həm də Araz çayını çox çirkləndirir".

Qeyd edək ki, digər alimlərin sözlərinə görə də Ermənistanda çaylar daha çox ölkə iqtisadiyyatında mühüm rol oynayan mədən sənayesinin tullantıları ilə çirkləndirilir.

Mütəxəssislər bu halın yalnız Azərbaycanın deyil, ümumilikdə, region ölkələrinin ekologiyasına ciddi zərər vurduğunu deyirlər. Alimlərin fikrincə, bu gün Ermənistan bütün bölgə üçün ciddi təhlükəyə çevrilib.

Alimlər bildirirlər ki, Ermənistanın Qacaran bölgəsində fəaliyyət göstərən "Zangezur Copper-Molybdenum Combine (ZCMC)" şirkəti tərəfindən mədənlərin işlədilməsi Oxçuçayın ciddi şəkildə çirklənməsinə səbəb olub. Onların dediyinə görə, əlvan metallurgiya ətraf mühiti, eləcə də çayları çox çirkləndirir. Ermənistan da məhz metallurgiya tullantılarını çaya axıdır. Ermənistanın Qafan rayonu ərazisindən keçən Oxçuçay Azərbaycanın işğal edilmiş ərazisində - Zəngilan rayonu ərazisində də axır. Arazın sol qolu olan Oxçuçay çox çirklənib. Oxçuçayın tərkibində dəmir, sink, qurğuşun, manqan və s. metalların həcmi artdığı üçün, onun suyu 5-ci kateqoriya, yəni ən aşağı keyfiyyətə malikdir. Buna görə də Ermənistan ərazisində o çayın suyundan irriqasiya məqsədləri üçün istifadə qadağan edilib. Bütün bunlar nəzərə alınarsa, İranın bundan narahat olması başadüşüləndir. İranın, eləcə də Azərbaycanın çaylarının Ermənistan tərəfindən çirkləndirilməsi ilə bağlı narahatlığına artıq qlobal müstəvidə qiymət verilməli və bu halın aradan qaldırılması üçün addımlar atılmalıdır".

Beynəlxalq qurumlar nə üçün onun qanunlarını pozan Ermənistanı cəzalandırmır?

Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun direktoru akademik Ramiz Məmmədov da bizimlə söhbətində bildirdi ki, Ermənistandakı mədənlər, eləcə də "Metsamor" Atom Elektrik Stansiyası bütün region çayları üçün təhlükədir. AES-in ekoloji baxımdan ətraf ölkələr üçün ciddi bir təhlükə mənbəyi olduğunu deyən akademik bildirir ki, Arpa çayı, Araz çayı ermənilərin üzündən ağır ekoloji durumla üzləşib. "Ermənistan beynəlxalq qurumların sənədlərinə heç zaman əhəmiyyət vermir. Ermənilər transsərhəd çayları çirkləndirir və təbiətə böyük zərər vururlar. Biz transsərhəd çayları ilə bağlı Helsinki razılaşmasına qoşulmuşuq, amma Ermənistan qoşulmayıb.

Hətta biz bununla bağlı Cenevrədə keçirilən tədbirdə iştirak edirdik, bu məsələni orada müzakirə edərkən Ermənistan nümayəndə heyətinin bu konvensiyaya qoşulmadığı məlum oldu. Ümumiyyətlə, ermənilər transsərhəd çaylara böyük zərər vururlar və transsərhəd çaylarla bağlı qəbul olunan qaydalara riayət etmirlər. Beynəlxalq qurumların qəbul etdiyi qərarlara Ermənistanın əhəmiyyət verməməsinə gəlincə, bu barədə heç nə deyə bilmərəm, siyasi məsələdir. Mən bir alim kimi dəfələrlə transsərhəd çayların ekoloji vəziyyətinin Ermənistan tərəfindən ağır duruma salınması ilə bağlı tənqidi fikirlərimi söyləmişəm. Yalnız Azərbaycan üçün deyil, digər qonşu dövlətlərin ərazisindən keçən çaylar üçün də ermənilər böyük təhlükə yaradırlar" - deyə R.Məmmədov bildirdi.

*İradə SARIYEVA*

**Aqrar sahədə görülən işlərin, fermerlərə verilən dəstəyin məntiqi nəticəsi olaraq burada müxtəlif növ məhsul növləri üzrə istehsal həcminin əhəmiyyətli dərəcədə artması müşahidə olunur. Qeyd edilən hal taxıl istehsalında da özünü qabarıq şəkildə büruzə verir.**

# Yerli taxıl istehsalı artsa da, Azərbaycana idxalı da azalmır - paradoks, ya...

Məlumat üçün bildirək ki, Azərbaycanda 2018-ci ildə taxıl istehsalı 2017-ci illə müqayisədə 13 faiz artaraq 3,3 milyon ton təşkil edib, buğda istehsalı isə 13 faiz artaraq 2 milyon ton olub. Həmçinin, taxılçılıq sahəsində özünütəminat səviyyəsi 66 faizdən 74 faizə, buğdada isə bu göstərici 58 faizdən 65 faizə çatıb. Cari ilin ilk üç rübündə də məhsuldarlıq göstəricisi artıb. Belə ki, oktyabrın 1-nə Azərbaycanda taxıl istehsalı 3,4 milyon tona, buğda istehsalı isə 2,2 milyon tona çatıb. Amma istehsal göstəricilərinin yüksək olmasına rəğmən, idxal sahəsində də yeni artım qeydə alınır. Məsələn, cari il iyulun 1-dən indiyə kimi Azərbaycan Rusiyadan 857 min ton taxıl və taxıl emalı məhsulları idxal edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3 dəfə çoxdur. Bununla da Rusiyanın Azərbaycana taxıl ixracı ümumi ixracının 4 faizinə bərabər olub və Azərbaycan Rusiyadan taxıl idxal edən ölkələrin siyahısında ilk beşilkdə yer alıb. Ümumiyyətlə, 2019-cu ilin 10 ayı ərzində Azərbaycana xarici ölkələrdən 294 milyon 984 min dollar dəyərində 1 milyon 371 min ton buğda idxal olunub. 2018-ci ilin 10 ayında isə Azərbaycana 176 milyon 5 min dollar dəyərində 939 min 22 ton buğda idxal edilib. 2018-ci ilin 10 ayı ilə müqayisədə 2019-cu ilin 10 ayında buğda idxalı dəyər ifadəsində 118 milyon 979 min dollar, miqdar ifadəsində isə 431 min 999 ton çoxdur. Beləliklə, səslənən rəqəmlərdən görünür ki, yerli taxıl istehsalı əhəmiyyətli dərəcədə artsa da, idxalda da azalma baş verməyib. Özü də idxal Azərbaycana heç də ucuz başa gəlmir. Ən azı ona görə ki, dünya bazarlarında taxılın qiymətində yeni artım qeydə alınır. Məsələn, indi Qazaxıstandan buğda idxalı artıq kifayət qədər baha başa gəlir. Səbəb də Qazaxıstanda taxıl istehsalının azalmasıdır.



Xatırladaq ki, noyabr ayının əvvəlindən etibarən Qazaxıstanda un və un məmulatlarının qiymətində bahalaşma müşahidə olunur. Bu ölkənin kənd təsərrüfatı naziri Saparxan Omarov bildirir ki, bu il məhsul əlverişsiz hava şəraitinə görə az olub, Qazaxıstan ötənilkinə nisbətən 1.5 milyon ton az buğda yığıb. Kənd Təsərrüfatı Nazirliyi bildirir ki, Qazaxıstan Türkiyə, Gürcüstan, İtaliya, İspaniya, Azərbaycan, Əfqanıstan və İrana buğda satır. Bu il Azərbaycana buğda ixracı ötənilkinə nisbətən 30 faiz artıb. Eləcə də 2016-cı ildə Çinə 300 min ton taxıl və un satılmışdısa, ötən il bu rəqəm iki dəfə çox olub. Artan daxili və xarici tələb fonunda Qazaxıstan buğdanın satış qiymətini artırıb. Rusiyada da eyni hal qeydə alınır. Qeyd edək ki, Azərbaycan ərzaq buğdasını əsasən Qazaxıstan və Rusiyadan idxal edir. Bu baxımdan qonşu ölkələrdəki bahalaşmanın Azərbaycana təsiri indi xüsusi maraq doğurur. İqtisadçı-ekspert Vüqar Bayramov bununla bağlı bildirir ki, ölkəmizdə müvafiq qurumlar çalışırlar çörəyin qiymətində artımlar olmasın: "Çörəyin qiymətinin bazar tərəfindən formalaşmasına baxmayaraq, qurumlar çörəyin qiymətini tənzimləməyə çalışırlar. Müvafiq hökumət qurumları çalışırlar ki, hətta idxal olunan məhsulların xərcində artımlar baş versə, bu, çörəyin qiymətinin artmasına gətirib çıxarmasın. Bunun üçün vergilərin azaldılması, iş adamları ilə müzakirənin aparılması və digər fərqli metodlardan istifadə edilir".

O bildirib ki, Azərbaycanda çörəyin qiymətinin bahalaşmaması hər zaman ərzaq bazarında bir növ prioritet məsələlərdən biridir: "Çünki çörəyin qiymətinin artması psixoloji olaraq digər məhsulların qiymətində də artımlara gətirib çıxarır. Amma çörəyin qiyməti sabit qalsa da belə, biz digər un məmulatlarının və xüsusən şirniyyat məhsullarının qiymətlərində artımları müşahidə edirik. Azərbaycan buğdanı daha çox Qazaxıstan və Rusiyadan idxal edir. O baxımdan, Qazaxıstandan idxal etdiyimiz buğda və un məhsullarının qiymətində artım olarsa, Qazaxıstanda un və un məmulatlarında bahalaşma davam edərsə, qiymətlər əvvəlki vəziyyətə qayıtmazsa, bu, yerli istehsal olan şirniyyat məhsullarımızın qiymətinin artmasına gətirib çıxaracaq. Çünki nəticədə xərc yaranır, iş adamları qiymət artımlarına getmək məcburiyyətində qalırlar". Ekspert onu da vurğulayır ki, Azərbaycanda çörəyin qiymətinin tənzimlənməsi prosesi davam edəcək:"Amma adətən tendensiya ondan ibarətdir ki, hətta çörəyin qiymətində dəyişiklik olmasa belə, çörəyin çəkisinin azalmasını müşahidə edirik. Ona görə də çörəyin çəkisi ilə bağlı standartlar və standartların icrasına nəzarətin gücləndirilməsi çox vacibdir. Çünki qiymət dəyişmirsə, çəki azalırsa, bu, gizli inflyasiyadır. Qazaxıstanda qiymət artımları davam edərsə, ölkəmizdə şirniyyat məhsullarının qiymətlərində artımlar olacaq. Amma hökumət çörəyin qiymətini mövcud səviyyədə saxlamağa çalışacaq. Çörəyin çəkisinə, keyfiyyət standartlarına nəzarətin gücləndirilməsinə ehtiyac var ki, iş adamları tərəfindən bu standartlara əməl olunsun".

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə isə bildirib ki, Qazaxıstandakı qiymət dəyişikliyi daxili bazarda cərəyan edir:"Bunun dünya bazarına, o cümlədən Azərbaycana aidiyyəti yoxdur. Azərbaycana idxal olunan buğdanın 70 faizi Rusiyadan gətirilir. Bundan başqa, Azərbaycanda buğda idxalı və istehsalı əlavə dəyər vergisindən də azaddır. Ona görə də regionda baş verən proseslərin Azərbaycana heç bir təsiri olmayacaq". Ekspertlər isə bildirir ki, yaranmış vəziyyətdə əsas məqam ərzaq buğdasına tələbin yerli istehsal hesabına ödənilməsini təmin etməkdir. Sadəcə, bunun üçün fermerlərlə ərzaq buğdasının istehsalı istiqamətində təşviqat işləri aparılmalıdır. Əks təqdirdə dünya taxıl bazarlarında baş verənlərin Azərbaycana təsiri qaçılmaz olacaq.

***Ramil QULİYEV***

**Çağdaş Azərbaycan və özbək ədəbiyyatının qarşılıqlı əlaqələrinin tarixi çox böyükdür. Türk etnosunun ayrılmaz qolları olan Azərbaycan və özbək xalqları ortaq dil, mədəniyyət və dəyərlər sisteminə çox böyük töhfələr veriblər. Əlbəttə, ədəbiyyat, söz insanları bir-birinə daha da doğmalaşdırır, uzaq-uzaq qitələri, diyarları yaxınlaşdırır.**

# Tanınmış özbək şairələri "Bakı-Xəbər"in qonağı oldular

***Oktemay Haldarova:***
*"Bizim Bakıya gəlişimizin məqsədi Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin daha da möhkəmlənməsinə, bu sahədə daha çox iş görülməsinə nail olmaqdır"*

***Gülçöhrə Şahabaddinqızı:***
*"Azərbaycan və Özbəkistan arasında çox zəngin ədəbi-mədəni əlaqələr var"*






Son dövrlər Özbəkistan və Azərbaycan arasında əlaqələr daha geniş vüsət alıb. Əlaqələrin daha da möhkəmlənməsi üçün ədəbiyyat, elm, mədəniyyət və digər sahələrdə tədbirlər keçirilir. Azərbaycan şair və yazıçılarının əsərləri Özbəkistanda, özbək yazarların şeir və nəsr nümunələri isə Azərbaycanda çap olunur, ədiblərin iştirakı ilə tez-tez qarşılıqlı səfərlər təşkil edilir.

Özbəkistan Yazıçılar Birliyinin üzvləri, tanınmış özbək yazarları Oktemay Haldarova və Gülçöhrə Şahabaddinqızı "Bakı-Xəbər"in qonağı oldular.

Hər iki tanınmış şairənin kitabları Azərbaycanda, Türkiyədə və digər ölkələrdə nəşr edilib, şeirləri müxtəlif dillərə tərcümə edilib. Çağdaş özbək ədəbiyyatının təmsilçiləri olan hər iki xanım bizimlə söhbətlərində Azərbaycanı, onun ədəbiyyatını çox sevdiklərini bildirdilər.

Oktemay xanım həm ədəbi yaradıcılıqla, həm də naşirliklə məşğul olur, bir çox Azərbaycan şairinin kitablarını tərcümə edərək öz nəşriyyatında çap edib.

Oktemay xanım bildirdi ki, bizim soysökümüz birdir, mədəniyyətimiz, mənəviyyatımız ayrılmazdır. "Bakıya ilk dəfədir gəlmişik. Biz Azərbaycanı çox sevirik, dilimiz də, dinimiz də, mədəniyyətimiz də, adətlərimiz də eynidir. Qədim zamanlarda Əlişir Nəvai Nizami Gəncəvindən bəhrələnərək əsərlər yaradıb. O deyirdi ki, "Xəmsə"ni Nizami Gəncəvi yaradıb. Sonra Nəvai özü də "Xəmsə" yaratdı. Sonrakı zamanlarda Fizuli də Nəvaini özünə ustad bilmişdi. Bu dahi şairlər türk xalqının böyük övladlarıdır və onların bir-birinin yaradıcılığından bəhrələnməsi təbiidir. Müasir dövrdə də Özbəkistan və Azərbaycan arasında ədəbi-mədəni əlaqələr çox yüksək səviyyədə inkişaf edib. Bizim şeirlərimiz tərcümə edilərək Azərbaycanda yayılır, Azərbaycan şairlərinin şeirləri də Özbəkistanda çox çap olunur. Məsələn, professor Amaz Ülvi Nəvainin yaradıcılığı haqqında çox məqalə yazıb. Özbəkistan haqqında onun başqa məqalə və yazıları da var. Mənim nəşriyyatım olan "Kamalak" nəşriyyatında Nizami Gəncəvinin "Məxzənül-Əsrar" ("Sirlər xəzinəsi") əsərini Camal Kamalın tərcüməsində çap etdik. "Azərbaycan alovlar yurdu" və "Azərbaycan mədəni mirası" və s. kitabları nəşr etmişəm. Xalq şairi Nəbi Xəzrinin, İslam Türkayın, Rüstəm Behrudinin və başqa şairlərin şeirlərini də tərcümə edib "Cahan" ədəbi dərgisində çap etdim. Bizim Bakıya gəlişimizin məqsədi Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin daha da möhkəmlənməsinə, bu sahədə daha çox iş görülməsinə nail olmaqdır" - deyə Oktemay Haldarova qeyd etdi.

O, həmçinin, bildirdi ki, Azərbaycanın qüdrətli şairi İmadəddin Nəsiminin 650 illik yubileyi çərçivəsində Özbəkistanda kitab da nəşr edilib. Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzində hər iki dövlətin, xalqın mədəni, ədəbi əlaqələrinin daha da gücləndirilməsi üçün çoxlu iş görüldüyünü deyən O.Haldarova hesab edir ki, qarşılıqlı ədəbi-mədəni əlaqələr xalqlarımızı daha da bir-birinə bağlayır.

Azərbaycanda Şahməmməd Dağlaroğlunun tərcüməsində "Səni sevirəm həyat" adlı kitabı nəşr olunan özbək şairəsi Gülçöhrə Şahabaddinqızı da bizimlə söhbətində bildirdi ki, bizim xalqlar eyni kökdəndir və lap qədim dövrdən Özbəkistan və Azərbaycan arasında böyük əlaqələr olub. "Bizim əcdadlarımız bir, dilimiz, dinimiz, mədəniyyətimiz birdir. Nizami Gəncəvi, Nəsimi, Füzuli özbək xalqının qürurudur. Özbəkistanda Azərbaycan mədəniyyət mərkəzi var. Bu mərkəzdə çoxlu iş görülür, Azərbaycan və özbək şairlərinin, yazıçılarının əsərləri nəşr edilir. Azərbaycan və Özbəkistan arasında çox zəngin ədəbi-mədəni əlaqələr var, bu əlaqələrin formalaşmasında hər iki ölkənin şair-yazıçılarının böyük rolu var" - deyə G.Şahabaddinqızı bildirdi.

O, həmçinin, qeyd etdi ki, Bakıda olduqları müddətdə bir sıra ədəbi görüşlərdə iştirak edəcəklər, o cümlədən, AYB sədri, Xalq yazıçısı Anarla görüşəcəklər.

***İradə SARIYEVA***

---

**Artıq 2 aydan çoxdur Bakı şəhərinin məktəbəqədər təhsil müəssisələrində sanitar-epidemioloji vəziyyətin öyrənilməsi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti və aidiyyəti qurumların nümayəndələrindən ibarət komissiya tərəfindən yoxlamalar aparılır.**

# Bakı İcra Hakimiyyəti bağçalarda dəhşətli vəziyyətlər aşkarlayıb



***Nadir İsrafilov:*** *"Bəzi bağçalarda qidalanma və epidemioloji vəziyyət normal halda olmadığı üçün valideynlər özəl bağçaya daha çox meyl göstərirlər"*

Qeyd edilən məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətində geniş tərkibli seminar-müşavirə keçirilib.

Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) yaydığı məlumatda qeyd olunur ki, komissiyanın apardığı yoxlamalar nəticəsində uşaq bağçalarında sanitar-epidemioloji vəziyyətin əvvəlki illərlə müqayisədə daha qənaətbəxş olması müəyyən edilib, lakin bununla yanaşı, bəzi bağçalarda müəyyən nöqsanlar aşkarlanıb. Müşavirədə aşkar edilən nöqsanlar, onların aradan qaldırılması yolları geniş müzakirə edilib.

Qeyd edək ki, məktəbəqədər təhsil müəssisələrinin ümumi vəziyyəti ilə bağlı dəfələrlə Bakı Şəhər İcra Hakimiyyəti və digər qurumlar birgə monitorinq aparıblar. Monitorinq zamanı bağçalarda həm sanitar-epidemioloji vəziyyət, eyni zamanda, qidalanma ilə bağlı vəziyyətin normal səviyyədə olmadığı aşkar olunub. Lakin hələ də bu sahədə vəziyyət həll olunmamış qalır.

Təhsil eksperti Nadir İsrafilov qeyd etdi ki, dövlət tərəfindən hər bir uşağın qidalanması üçün qida rasionu müəyyən olunub. Lakin bəzi bağça müdirləri və ayrı-ayrı yerli icra hakimiyyəti orqanları tərəfindən həmin ərzağın böyük əksəriyyəti mənimsənilir: "Beləliklə, həmin qidalar uşaq bağçasına gedib çatmır. Bu problemlə bağlı şikayətlər yetərincədir. Valideynlərin özləri övladlarına evdən ərzaq qoymasa, o zaman uşaqlar keyfiyyətsiz qida ilə qidalanmalı olacaqlar. Təəssüf ki, bu problem əksər dövlət uşaq bağçalarında qeydə alınır. Bu səbəbdən valideynlər özəl bağçaya daha çox meyl göstərirlər"

*"...həmin məktəbəqədər təhsil müəssisəsi qanun çərçivəsində cəzalandırılmalıdır"*

Həmsöhbətimiz onu da vurğuladı ki, problemin olmaması üçün mütəmadi olaraq uşaq bağçalarında monitorinq keçirilməlidir: "Keçirilən monitorinqlər formal xarakter daşımamalıdır. Hansısa uşaq bağçasında qida rasionuna, eyni zamanda, sanitar-epidemioloji vəziyyətə düzgün riayət olunmursa, həmin məktəbəqədər təhsil müəssisəsi qanun çərçivəsində cəzalandırılmalıdır. Yaxşı olar ki, həmin bağçanın və rəhbərliyin adı ictimaiyyətə açıqlansın. Belə olan halda, digər bağçalar uşaqların qidalanmasına xüsusi fikir verəcəklər. Beləliklə, bu sahədə hər hansı bir problem yaşanmaz".

***Günel CƏLİLOVA***

# Azərbaycanda elektron ticarəti islahatların sürətinə necə yaxınlaşdırmaq olar...

## *Vüsalə Əhmədova: "...hökumət müəyyən güzəştlər təklif etməlidir"*

**Elektron ticarətdən ilk dəfə ABŞ-da XX əsrin 60-cı illərində istifadə olunmağa başlanıb. XX əsrin 90-cı illərinin ortalarından başlayaraq bütün dünya üzrə elektron ticarət sahəsində fəallığın artması müşahidə olunub. Hazırda, demək olar ki, istənilən malı şəbəkə vasitəsilə almaq mümkündür.**

Bu gün "onlayn ticarət" sahəsinin formalaşması insanların alış-veriş işinin xeyli asanlaşmasına səbəb olub. İnternetin verdiyi bu xidmət sahəsində istədiyimiz əşyanın həm alış, həm də satış işini daha rahat və sürətlə həyata keçirə bilirik. Hazırda elə insan yoxdur ki, özü və ya tanıdığı kimsə onlayn aliş-verişdən faydalanmasın. Statistik məlumatlar göstərir ki, Azərbaycanda onlayn alış-veriş sahəsindəki iş imkanları 150% artıb. Sözügedən ticarət sahəsinin formalaşması yeni iş sahələrinin ortaya, bəzi peşə sahələrinin isə önə çıxmasına səbəb olub.

Onlayn ticarətin ən böyük üstünlüyü, zamandan və məkandan asılı olmayaraq, dünyanın istənilən yerindən və istənilən saatda müştərilərə alış-veriş etmək imkanı yaratması, istifadəçilərin məhsul və xidmətlər haqqında daha asan və sürətli məlumat əldə etməsini təmin etməsidir. Eyni zamanda, işlətmə xərclərinizi azalda bilər, iş sahiblərinə real həyatda edə bilməyəcəklərini etmə imkanını təmin edir.

Onlayn ticarətin alıcılar, şirkətlər və ölkə üçün bir çox üstünlüyü var: elektron ticarət zamanı alıcı vaxta və pula qənaət edir, dövlət isə vergi sistemində şəffaflığa nail olur. Belə ki, elektron ticarət zamanı ödəmələr onlayn üsulla aparıldığından, bütün hesablaşmalar qeydə alınır və vergiyə cəlb olunur, nəticədə vergidən yayınma halları praktik olaraq mümkün olmur. Ölkədə elektron ticarətin inkişafı üçün, ilk növbədə, insanları bu sahəyə cəlb etmək lazımdır. Bunun üçün isə müəyyən güzəştlər tətbiq edilməli və konkret addımlar atılmalıdır.

Azərbaycanda elektron ticarətə böyük maraq var. Lakin bu sektorda hələ də bəzi problemlər mövcuddur. Belə ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə elektron ticarət geniş yayıldığı halda, bizdə bu sahədə geriləmə müşahidə olunur.

İqtisadçı-ekspert Vüsalə Əhmədova bildirdi ki, dünyada elektron ticarətin həcmi böyük sürətlə artmaqdadır: "Elektron ticarət internet vasitəsilə onlayn və ya offlayn icra edilən əməliyyatlar sayılır. Termin məhz keçən əsrin sonlarında İBM şirkəti tərəfindən yaradılmış, 1980-ci ildən etibarən "Ford", "Peugeot", "General Motors" və "Nissan" kimi irimiqyaslı avtomobil istehsalçıları internet-mağazalardan istifadə etməyə başlayınca geniş vüsət alıb. 2000-ci ildən başlayaraq isə əsasən Amerika və Avropa şirkətləri öz məhsul və xidmətlərini internet vasitəsilə təqdim etməyə başladılar. 2012-ci ildə qlobal miqyasda 25 faiz olan e-ticarət, son üç ildə 60 faizə yüksəlib. E-ticarət həcminə görə ilk beşlikdəki ölkələr ABŞ, Çin, İngiltərə, Yaponiya və Almaniyadır. Onlayn ticarət dövriyyəsi 2016-cı ildə 2 trilyon dollar olduğu halda, 2018-ci ildə qlobal e-ticarət həcmi 2,5 trilyon dollar səviyyəsinə çatıb, 2020-ci ildə isə bu rəqəmin 4 trilyon dollar olacağı gözlənir".

Həmsöhbətimizin sözlərinə görə, ölkəmizdə e-ticarət dövriyyəsi pərakəndə ticarət dövriyyəsindən dəfələrlə aşağıdır: "Ölkəmizdə hazırda istifadədə olan cəmi bank kartlarının sayı 5 milyon 558 min ədəd təşkil edir ki, onların da 2 milyon 545 min ədədi sosial, 1 milyon 702 min ədədi əməkhaqqı, 745 min ədədi isə digər kartlardır. İnsanlarımızın böyük əksəriyyəti əməkhaqqı və təqaüd kartlarından yalnız nağd pulun çıxarılması üçün istifadə edirlər. Müqayisə üçün bildirmək istərdim ki, Türkiyədə istifadədə olan bank kartlarının sayı 131 milyon 600 min ədəddən çoxdur. Burada hər 5 kredit kartından 2-si internet alış-verişində istifadə olunur".

V.Əhmədova hesab edir ki, ölkəmizdə elektron ticarətin genişlənməsi üçün hökumət müəyyən güzəştlər təklif etməlidir: "Xatırladım ki, 2016-cı ildə hökumətimiz internet saytlarından ediləcək onlayn alış-verişlər üçün 18 faizlik ƏDV tətbiq etdi. Bildiyiniz kimi, Azərbaycanda "Elektron ticarət haqqında" Qanun qəbul edilib. Qanun elektron ticarət qaydalarından tutmuş, işlərin və xidmətlərin təqdim edilməsi, elektron ticarətin iştirakçısı olan satıcı və alıcıya dair tələbləri müəyyən edən normaları özündə ehtiva edir. Vergi Məcəlləsinə də rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizmini müəyyən edən müddəalar əlavə edilib. Qeyri-rezidentlər tərəfindən Azərbaycan rezidentlərinə elektron ticarət qaydasında göstərilən xidmətlərdən, ödəməni həyata keçirən bank tərəfindən ƏDV hesablanır və alıcının vəsaiti hesabına tutulmaqla dövlət büdcəsinə ödənilir. İnternet şəbəkəsi vasitəsilə elektron kitabların, audio-vizual materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi də qeyri-rezidentin göstərdiyi iş və xidmət hesab edilməklə ƏDV-yə cəlb edilir. Hazırda, demək olar ki, elektron ticarət xüsusən sahibkarlar üçün sərfəlidir. Elektron ticarətin ölkəmizdə geniş vüsət alması üçün müəyyən vergi güzəştlərinin tətbiq edilməsi vacibdir. E-ticarəti ƏDV-dən azad etməklə istehlakçılar üçün daha sərfəli hala gətirmək olar. Bundan əlavə, ölkəmizdə bir çox onlayn market saytı özlərinin fiziki ünvanlarını göstərmir, bu isə alıcıların internet mağazalara inamını azaldır. Digər bir səbəb kimi, e-ticarət saytlarında və hətta böyük şirkətlərin saytlarında belə axtarış motoru optimallaşdırması aşağı səviyyədədir, onlayn marketlərin bloqunun mövcud olmadığını da qeyd etmək istərdim. Amazon, E-bay, Aliexpress kimi dünyanın nəhəng elektron ticarət platformalarının Azərbaycana çatdırılma xidməti yoxdur.

Ümumiyyətlə, vətəndaşların plastik kartla ödəniş etməkdə maraqlı olmaları üçün il ərzində həyata keçirdikləri ödənişlərin 5-7 faizinin bonus şəklində vətəndaşın hesabına yüklənməsini tövsiyə edərdim. Nağdsız ödənişlərin payının artırılması bizə "kölgə iqtisadiyyatından" müəyyən qədər qurtulmağa imkan verə bilər.

Kağız pulların az istifadəsi ölkədə cinayətkarlığın sayının azalmasında da mühüm rol oynayır".




*"Ölkəmizdə bir çox onlayn market saytı özlərinin fiziki ünvanlarını göstərmir, bu isə alıcıların internet mağazalara inamını azaldır"*

**Günel CƏLİLOVA**

# Maliyyə... Palatasının ləğvindən sonra Azərbaycanın bank-maliyyə-kredit bazarında vəziyyət...

**Noyabrın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edilib, səlahiyyətləri və əmlakı Mərkəzi Banka verilib.**




## *Pərviz Heydərov: "Palata ona görə yaradılmışdı ki, ölkə iqtisadiyyatının maliyyə sektorunda dayanıqlıq təmin olunsun"*

Azərbaycanın bank sektorunun tam sağlamlaşdırılmaması, əhalinin banklara inamının bərpa olunmaması, bankların real sektorun maliyyələşdirilməsində geniş iştirak etməməsi, sığorta sektorunun tənəzzüldə qalması, qeyri-dövlət qiymətli kağızlar bazarının canlanmaması, Palatanın bir sıra qərarlarının maliyyə sektorunda etirazla qarşılanması, bəzi islahatların gecikməsi, Mərkəzi Bank və Palata asında anlaşılmazlıqlar bu qurumun ləğv edilməsinin səbəbləri ola bilər.

Qeyd edək ki, Palatanın ləğv olunması bir çox bankiri, investorları və vətəndaşları narahat edib. Ehtimal edilir ki, Mərkəzi Bank yeni islahatlar çərçivəsində məcmu kapitalı tələblərə cavab verməyən, gəlirləri xərclərini ödəməyən bankların lisenziyalarını ləğv edə bilər. Bundan başqa, zəif bankların birləşməsi tələbi də yenidən gündəmə gətirilə bilər.

Maliyyə Bazarlarına Nəzarət Palatasının ləğvi Azərbaycanın bank-maliyyə, eyni zamanda, kredit bazarına necə təsir edəcək?

İqtisadçı-ekspert Pərviz Heydərov bildirdi ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının ləğv edilməsi və qanunvericilikdə maliyyə bazarlarına nəzarət orqanının müəyyən edilmiş səlahiyyətlərinin, o cümlədən, onun maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması sahəsində vəzifə və hüquqlarının, habelə əmlakının Azərbaycan Mərkəzi Bankına verilməsi gözlənilən və əslində, bir az da bundan əvvəl atılması tələb olunan addım idi: "Ölkə Prezidentinin 3 fevral 2016-cı il tarixli, 760 nömrəli Fərmanına uyğun olaraq, qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru) və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, həmçinin, bu sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etmək məqsədilə yaradılan Palata ötən 3 il 10 aylıq dövrdə fəaliyyəti ərzində çox effektsiz xarakter daşıdığını, faktiki olaraq, heç bir halda yenilik gətirmədiyini çoxdan sübut etdi. Palata ona görə yaradılmışdı ki, ölkə iqtisadiyyatının maliyyə sektorunda dayanıqlıq təmin olunsun və bu sahədə nəzarət tədbirləri gücləndirilsin. Başqa sözlə desəm, ölkənin qiymətli kağızlar bazarında, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrində, habelə ödəniş sistemlərində çeviklik və şəffaflıq əldə olunsun, eyni zamanda, bu sahələrdə tənzimləmə və nəzarət sistemi təkmilləşdirilmiş formada təşkil edilsin".

> *"...bunlara bir "dam altında" diqtə etmək özü də sağlam məntiqə sığmır"*

Bütün bunların təşəkkül tapmadığını deyən ekspert səbəblərini də açıqladı: "Çünki bütün sadalananların təşəkkül tapması üçün, əslində, MBNP kimi quruma yaradılmasına ehtiyac yox idi. Bu, səhv addım idi, heç bir effekt verə bilməzdi və qeyd etdiyim kimi, vermədi. Sadəcə olaraq, 2014-2016-cı illər ərzindəki neftin dünya bazar qiymətlərinin düşməsi ilə yaranan məlum böhran və xarici təsirlər üzündən maliyyə bazarımız bir təlatüm yaşadı ki, Palata yaratmaq əsas çıxış yollarından biri hesab edildi. Halbuki, bu, məsələni konservləşdirməkdən başqa bir şey deyildi. Ölkənin maliyyə bazarındakı böhran, bank sektorunun iflic vəziyyətə düşməsi və sair, neftin qiymətinin enməsi nəticəsində yaranmadı. Bu, əvvəlcədən mövcud idi ki, sadəcə olaraq, "yaranın üstü" açıldı. Ümumiyyətlə, AMB və Maliyyə Nazirliyi olan yerdə sözügedən bazarı idarə etmək, tənzimləmək və ona nəzarət üçün əlavə bir quruma ehtiyac yoxdur. Digər tərəfdən, bank sektoru, sığorta və qiymətli kağızlar bazarı maliyyə bazarının ayrı-ayrı seqmentləridir. Bunlara bir "dam altında" diqtə etmək özü də sağlam məntiqə sığmır. Odur ki, Palata elə yaranan gündən "anadan ölü doğulmuş uşaq" idi".

**Günel CƏLİLOVA**

# Bakı qəbiristanlıqlarında məzar məzar üstündədir...

**Qəbiristanlıq bütün insanların bir ucu ölümlü dünyada son dayanacağıdır. Ona görə də təsadüfi deyil ki, ulu babalarımız qəbir evinə son mənzil deyiblər, yəni hər kəsin son evi bu dar qəfəsdir. Amma elə adamlar var ki, onlara 5 kvadratlıq məzar evi qismət olmur.**




## *Məhərrəm Əsgərov: "...bələdiyyələrin balansına verilən qəbiristanlıqlarda dəfn zamanı 63 manat xidməthaqqı nəzərdə tutulur"*

Bu gün Azərbaycanın paytaxtı Bakı da daxil olmaqla, ölkəmizin bütün iri şəhərlərində qəbir yeri məsələsi ciddi problemə çevrilib. Bakıda isə bu özünü daha kəskin şəkildə göstərir. Şəhərin mərkəzində mövcud olan iri qəbiristanlıqların böyük əksəriyyətində ciddi yer məhdudiyyəti var. Bu məhdudluq da qəbiristanlıqlarda qeyri-rəsmi olaraq qiymətlərin artmasına səbəb olur. Qanunvericiliyə görə, məzarlıqlar pulsuzdur və heç bir vəfat etmiş şəxsin dəfn edilməsi üçün tələb edilən torpağa görə pul ödənilməməlidir, amma Bakı qəbiristanlıqlarında bir qarış da olsun pulsuz yer yoxdur. Bu gün paytaxtın elə məzarlıqları var ki, burada qiymətlər 15-20 min manatdan da yuxarıdır, insanlar 1000-1500 manata qəbir yeri aldıqda elə sevinirlər ki... Əlbəttə, Bakı Şəhər İcra hakimiyyətinin müvafiq qurumu bildirir ki, məzarlıqlar pulsuzdur, kimdən bunun üçün pul tələb olunursa, qurumun "qaynar xətt"inə bu barədə məlumat verilməlidir.

Qeyd edək ki, Bakı məzarlıqlarında yer o qədər məhduddur ki, bir çox hallarda ölülər üst-üstə basdırılır. Yəni bir nəfərə qəbir qazarkən onun üçün qazılan məzardan başqa bir mərhumun sümükləri çıxır. Başqa bir problem də odur ki, bir çox imkanlı şəxs özləri üçün qəbir yeri alıblar və hətta başdaşı da qoyublar ki, öləndə övladları çətinlik çəkməsin.

Mütəxəssislər bildirirlər ki, paytaxt qəbiristanlıqlarında yer məhdudiyyətinin olması həm də qəbiristanlıqlardan rezerv torpaq sahələri götürülməsi, həmin sahənin dəmir barmaqlıqlarla hasarlanması ilə bağlıdır. Onlar qeyd edir ki, bu gün məzarlıqlarda məzar yeri satanların bir çoxu vaxtilə qəbiristanlıqlarda böyük torpaq sahəsi alanlardır ki, bu gün o torpaqları satırlar.

Xocasən bələdiyyəsinin sədri, tanınmış ziyalı Məhərrəm Əsgərov "Bakı-Xəbər"ə bildirdi ki, Bakıdakı qəbiristanlıqların çoxunun dolması yeni qəbiristanlıqların yaradılmasını tələb edir. M.Əsgərovun sözlərinə görə, yeni məzarlıqlar paytaxtın içində yox, kənar qəsəbələrdə salınmalıdır: "Bakı məzarlıqlarındakı yer probleminin həlli məqsədilə yeni qəbiristanlıqların yaradılması üçün torpaq sahələrinin ayrılması lazımdır.

> *"Bakı məzarlıqlarındakı yer probleminin həlli məqsədilə yeni qəbiristanlıqların yaradılması üçün torpaq sahələrinin ayrılması lazımdır"*

Bunun başqa yolu yoxdur. Yeni qəbiristanlıqlar üçün paytaxtın içində yer azdır, bu məzarlıqlar şəhərdən kənarda salınmalıdır. Yeni qanunvericilikdə də qəbiristanlıqlar üçün hansı torpaqların ayrılması nəzərdə tutulub. Bu, əkin üçün yararsız torpaqlar olmalıdır. Bizim qəsəbədə əkinə yararsız bir sahə var ki, biz oranın qəbiristanlıq üçün ayrılmasını təklif etmişik. Ora düzdür, bələdiyyə torpağı deyil, dövlət torpağıdır, Dövlət Neft Şirkətinin balansındadır".

Xocasəndə məzarlıqla bağlı heç bir problem olmadığını və insanların burada pulsuz dəfn edildiyini deyən M.Əsgərovun sözlərinə görə, ümumiyyətlə, qəbir yeri qanunla pulsuzdur. "Ümumiyyətlə, bütün qəbiristanlıqlar pulsuzdur, qəbir yerləri pullu olmamalıdır. Sadəcə, qanunvericiliyə görə, bələdiyyələrin balansına verilən qəbiristanlıqlarda dəfn zamanı 63 manat xidməthaqqı nəzərdə tutulur. Başqa bu sahədə pul olmamalıdır. Torpaq pulsuz olmalıdır" - deyə M.Əsgərov qeyd etdi.

**İradə SARIYEVA**

# Hay sürüsünün etnogenezisində Qədim Misir "kodu"

## (X məqalə)

**Hay əsilli tarixçi A.Teryan və bloger A.Teryans 2015-ci ildə çap etdirdikləri "Misirin erməni şahbanuları" əsərində qədim Misir fironlarının 18-ci sülaləsinin (e.ə. XIII əsrdə) hay mənşəli olduğunu bildiriblər. Bu mülahizə 2006-cı ildə İrəvan şəhərində nəşr edilən "Ermənistan tarixi" kitabında da yer alıb.**

Əvvəlki yazılarımızda qeyd etdiyimiz kimi, bəşər tarixinin neolit və eneolit dövrlərində (e.ə. VIII-V minilliklərdə) ibtidai insan sürüsü halında Həbəş dağlıq yaylasında mağara həyatı sürən protohay qəbilə icmasına aid tiqran, tiqr, tiqrau, amxar... tayfalarının etnogenezisində, morfo-psixoloji durumunda, qonşu qəbilə-tayfa münasibətlərinin inkişafında genetik qan yaddaşlarının, kod daşıyıcılarının təsiri güclü olub. Bu təsir Həbəş dağlıq yaylası, Omo çayı hövzəsi, Nil çayı vadisi (çay yatağının 5-ci və 6-cı dirsəkləri arasında sağ qolları olan Mavi Nil və Atbara çayları hövzələri), Nubiya səhrası (Medani vadisi), Qırmızı dənizin qərb sahilləri (Ərəbistan səhrası hüdudları da daxil olmaqla) və Nilin deltası boyunca protohay sürüsünün şüur-düşüncə-davranış tərzinin formalaşması mərhələləri kimi (e.ə. IV-I minilliklərdə) qiymətləndirilir. Təbii ki, protohay ibtidai insan sürüsünün xristianlığaqədərki yerli həbəş, misir, ərəb, yəhudi... tayfalarına assimlyasiyası qaçılmaz olsada, iqlim-landşaft amillərinin də onların gen-qan yaddaşına, etno-morfo xüsusiyyətlərinə təsiri mühüm dəyişikliklərə (özəl şüur tipinə çevrilməsinə) səbəb olub. Çünki insan orqanizmində elə gen daşıyıcıları var ki, onlar sonradan iqlim-landşaft elementlərinin ekstremal keskin fərqliliyi şəraitində əxz edilir, mənimsənilir.

Əlbəttə, təbii təsir amillərinin davamlı olmasını həmin minilliklərin mütəhərrik olan hərbi-siyasi və ictimai-sosial durumları da şərtləndirib. Və bu barədə qədim Misir, Yunan, Roma, Ərəb... alimlərinin, səyyahlarının, tarixçi və ilahiyyatçı mütəfəkkirlərinin əsərlərində (xronoloji ardıcıllıqla bu mənbələrə əvvəlki məqalələrdə yer verildiyi üçün bu yazıda onların adları çəkilmir - Q.Y.) kifayət qədər tutarlı dəlillər və mülahizələr var. Ona görə də, həmin tarixi faktlardan göründüyü kimi, protohay ibtidai insan sürüsünün şüur, düşüncə, davranış, dərketmə... səviyyəsinin formalaşmasına təsir mərhələlərinin əsas coğrafi məkan əraziləri kimi Nil çayı vadisi boyunca (yuxarı axarlarından deltaya qədər) landşaft-struktur formalarının təsiri qaçılmaz olub. Bu xüsusda Nil çayının ayrı-ayrı hissələrinin (ilk növbədə Yuxarı Misir hökmdarlarının hakimiyyəti illərinin əhatə edən e.ə. IV miniilklər çağında) səciyyəvi təsiri (təbii və ictimai təzahür formaları) ilə bağlı bu yazımızda müəyyən təhlillər aparılacaq. Təsadüfi deyil ki, təbii mühit və coğrafi landşaft amillərinin protohay ibtidai sürüsünün morfoetnik genezisinə və antropoloji strukturuna təsiri ilə bağlı ümumi mülahizələrə dünya alimlərinin, eləcə də rus-sovet alimlərinin tədqiqatlarında (əsərlərində) geniş yer ayrılıb. Bu baxımdan sovetrus tarixçisi-şərqşünası, tarix elmləri doktoru İ.M.Dyakonovun (1914-1999) "Erməni xalqının əski tarixi (e.ə. 1500-ci ildən 500-ci ilədək Erməni dağlıq yaylasının tarixi)" əsərində (İrəvan şəhəri, Ermənistan SSR EA-nın nəşri, 1968) antropolji tip-etnogenezis xüsusiyyətlərinin formalaşmasına təsir edən amillər üç hissəyə ayrılır: təbii-coğrafi şəraitin fiziki amili; təbii-sosial amillərin dil-nitq yaradıcılığı və ictimai-sosial mühitin mədəni təsiri. Və göstərilir ki, antropoloji tiplərin yayılma arealının sərhədi heç vaxt xalqların və dillərin sərhədi ilə üst-üstə düşmür." Bu elmi mülahizə yarım əsr bundan əvvəl hayların sanki əsrlərlə uydurduqları saxta iddialarının qarşısının alınması üçün irəli sürülüb. Axı, ibtidai hay sürüsü ilkin qəbilətayfa şüurunda və formasında yarandığı (formalaşdığı) Şərqi Afrika landşaftının mağaralarını, Nil çayı hövzəsinin rütubətli və quru çöl vadilərini, Aralıq dənizinin ada və yarımadalarını... "unudaraq" zorla, saxta yolla özlərinə "vətən-dövlət" yaratmaq iddialarını yerli xalqların əzəli torpaqları hesabına həyata keçirməklə "Erməni dağlıq yaylası"nın onlara məxsusluğunu məhz qədim xalq (dil və din) olmaları ilə əlaqələndirməyə ciddi-cəhdlə çalışırlar. Yəni "unudurlar" ki, hay etno-morfogenezisinin təbii və sosial mənbəyi, "dil açmaları və nitqləri" (əlifbası da daxil olmaqla) Afrika qitəsi ilə bağlıdır, Ön Asiya və Qafqaz təbiəti-landşaftı ilə bağlılıqları olmayıb.

İ.M.Dyakonovun digər bir "Erməni xalqının tarixi əsasları" əsərində (İrəvan şəhəri, 1958) isə başqa bir elmi fikir deyilib - "erməni etnosunun formalaşması Qafqaz sərhədləri hüdudundan kənarda olub". Onun başqa bir mülahizəsi erməni dili ilə bağlıdır - "... qədim erməni dili Erməni dağlıq yayalasının avtoxton (yerli kökənli - Q.Y.) dilləri ilə qohum deyil, aydın məsələdir ki, onlar buraya kənardan gəliblər". Bu mülahizənin təsdiqini hay mənşəli akademik, ədəbiyyatşünas M.X.Abeqyan (1865-1999) "Qədim erməni ədəbiyyatının tarixi" əsərində (İrəvan şəhəri, 1-2 c., 1944-46-cı illər, rusca nəşri 1975-ci il) başqa cür ifadə edib - "...erməni xalqının kökü haradadır, necə, nə vaxt, hansı şəraitdə yaranıb, haradan və hansı yollarla onlar buraya gəlmişlər... biz dəqiq və aydın təsdiqedici faktlara malik deyilik".

Məhz bu yöndən yanaşıldıqda ibtidai hay sürüsünün antropoloji-irqi strukturunda, üz, sifət-cizgi görünüşünün formalaşması mərhələlərinin Həbəş dağlıq yaylası və Nil çayı hövzəsi ilə qarşılıqlı təsirində e.ə. III minillik dövrü - qədim Misir hökmdarı I Senusertin hakimiyyət (e.ə. 2366-2333-cü illər) çağı da



istisnalıq təşkil etmir. Bu illərdə Nil çayı vadisi boyunca mağaralarda ibtidai insan sürüləri halında məskunlaşan protohay qəbiləsi rütubətli quru iqlim şəraitində əsasən suvarma əkinçiliyi ilə məşğul olub. Çünki Omo çayı hövzəsində yığıcılıqla məşğul olan bu qəbilələr yerli qəbilə-tayfa münaqişləri və yem axtarışı ilə əlaqədar artıq IV minilliyin sonlarında mavi Nil çayından keçərək rütubətli vadilərdə özlərinə mağara həyatı yarada bilib və oturaq şəraitdə əkinçiklə məşğul olublar. Həbəş dağlıq yaylasının isti, quraq iqlimi, dağ və yayla landşaftı protohay sürüsünün etnomorfoloji kompleksində kobud sifət cizgilərinin, assimmetrik ayaq-bədən formasının, yerli qəbilələrin danışıq tərzinə uyğun cingiltili leksik dil-nitq sintezinin yaranmasında mühüm rol oynasa da, Nil çayının yuxarı axarlarının rütubətli-isti vadi mühiti də prtohay sürüsünün antropoloji tip kimi təşəkkülünə təsirsiz ötüşməyib.

Nil çayı vadisinin (çayın sağ qolu Atbara və Mavi Nil hövzəsi, Nil çayının 5-ci və 6-cı yataq dirsəkləri arası) isti-rütubətli şəraiti protohay sürüsünün qadın və kişi cinslərinin antropoloji əlamətlərinin (qadın və kişilərdə qolların uzun olması, eyni sifətüz quruluşu, almacıqlarının oxşarlığı, geniş alınlılıq, yastı kürək, siyir əyriliyi...) yaşayış yeri ilə bağlı ekstremal mühitin (yığıcılıq mühiti, suvarma əkinçiliyində əl əməyinin üstünlüyü) əlaqə ifadəsidir. Bu təsir antropoekoloji amillər kimi uzunmüddətli və güclü təsirə malik olduğundan (Həbəş yaylası-Nil çayı vadisi boyunca intensiv yerdəyişmə şəraiti), protohay irqi - zənci irqinin gen-qan daşıyıcısı kimi həm də sifət cizgilərinin, ortaboylu bədən quruluşunda morfoloji ələməti kimi ifadə olunub.

İbtidai insan instinktinə (eləcə də antropoekoloji təsirlərə) rəğmən qazanılmış vərdişlər sirasında əvvəlki təbii mühitdən yaxşı mənada fərqlənən Nil çayı vadisi protohay sürüsünün daha yaxşı yerlərdə məskunlaşmaq istəyini gücləndirib. Həmişə daha yaxşı ərazilərə canatma instinkti sonrakı mərhələdə gen-qan daşıyıcısı kimi bu qəbilə-tayfa sürüsünün etnogenezisində ilk növbədə "iqlim-relyef şəraitini nəzərə almaq" kodunun rüşeymlərinin cücərməsinə səbəb olub.

Tarixi məlumatlara görə, Afrika qitəsinin 10-12 min il-lik əvvəlki rütubətli dövründə indiki səhra landşaftı (eləcə də Nil çayı hövzəsi) savanna olub, hündür boylu ot örtüyü ilə zəngin idi. Ona görə də e.ə. V-IV minillikdə quraq-isti iqlim şəraitinin hökm sürməsi (qrunt sularının səviyyəsinin azalması, savannaların səhraya çevrilməsi...) miqrasiya prosesini zəruri edib. İbtidai protohay qəbilətayfa sürüsünün bu dövrdə şimala doğru hərəkət etməsi həm də bu amillərlə bağlı idi.

Çox təəssüf ki, bu kodun daşıyıcılarının hədəfinə heç bir dövlətin ərazisi yox, yalnız Azərbaycan dövlətinin füsunkar təbiəti hədəf olub - yüz illər boyunca. Kifayətdir ki, son yüzillikdə hay sürüsünün (Cənubi Azərbaycan və Naxçıvan ərazilərini nəzərə almasaq) istər Azərbaycan Xalq Cumhuriyyəti dövründə (1920-ci ilədək), istərsə də Azərbaycan SSR illərində (1920-1991-ci illər), istərsə də ölkəmizin müstəqiliyyində (1991-ci ildən bu günümüzədək) yaşadıqları ərazilərin təbii-coğrafi şəraitinə xəritədə diqqət yetirilsin: İrəvan, Göyçə, Zəngəzur və Qarabağ qəzaları, Quba və Şamaxı qəzaları (Bakı qəzasının sərvətlərini və idarəetmə sistemini mənimsəməklə), Qarabağın dağlıq hissəsi (sərvətləri talanmaqla)...

Deməli, ibtidai protohay sürüsünün antro-etno genezinin formalaşması mərhələsi kimi qədim Misir ərazisində (e.ə. IV-III minilliklərdə) təbii yerdəyişmə həm də həmin dövrün siyasi-hərbi qarşıdurmalarının və ictimai-iqtisadi təsərrüfat sisteminin inkişafı ilə bağlı olub. Hökmdar Amenexetin hakimiyyəti illərində (e.ə. 2366-2333-cü illərdə) həbəş tayfaları ilə müharibədə əsir götürülənlər (onların tərkibində tiqran, tiqr, amxar, tiqrau qəbilələrinin üzvləri daha çox olub) Nil çayı hövzəsinin III döngəsinədək vadilərdə məskunlaşdırılıb, xüsusilə suvarma əkinçiliyinin və heyvandarlığının təşəkkül tapdığı (Əl-Fayum vadisində) çay vadilərində. İbtidai hay sürüsündən bu hövzədə ucaldılan Havara və Labirint ehramlarının tikintisində də istifadə edilib.

Ona görə də ibtidai hay sürüsünün etno-morfo irsinin gen yaddaşında mühüm yer tutan Qədim Misir dövrünün araşdırılması daha vacibdir, bu canlıların daha dəqiq qiymətləndirilməsi üçün.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

№ 213 (4111) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

30-2 NOYABR-DEKABR 2019-cu il

www.baki-xeber.com

# Siqareti atmağın elmi yolu tapılıb

**Elm adamları nikotinə qarşı iyrənmə hissindən məsul beyin hüceyrələrini aşkar edib.**

"Qaynarinfo" xəbər verir ki, bu haqda aparılan tədqiqatın nəticələri ilə bağlı "Proceedings of National" Elmlər Akademiyasının jurnalında dərc edilmiş məqalədə deyilir. Tədqiqatçılar hesab edirlər ki, bu kəşf siqaretdən imtina etmək üçün effektiv dərman yaratmağa kömək edəcək. Məqalədə deyilir ki, ilk çəkilən siqaret onu çəkənin beyninə ikiqat təsir göstərir və həm iyrənməyə, həm də zövqə səbəb olur. Siqaret bir vərdiş halına gəldikdə isə ilk ləzzətin əvəzinə nikotinə qarşı davamlı bir meyil yaranır. İndiyə kimi, bu təsirin nikotinin beynin iki fərqli hissəsində reseptorları aktivləşdirməsi ilə əlaqəli olduğuna inanılırdı. Toronto Universitetinin kanadalı alimləri isə siqaret



çəkməyin ilk epizodları zamanı əks hisslərə mükafatlandırma sistemi və vərdişlərin formalaşmasına cavabdeh olan orta beyin neyronlarının fərqli populyasiyalarının səbəb olduğunu müəyyən ediblər. "Artıq biz bilirik ki, nikotin beynin müxtəlif hissələrində neyronları aktivləşdirir. İyrənmə hissi daim mövcud olmalıdır, lakin bir insan nə qədər çox siqaret çəkirsə, onda onun reseptorlarında və beynin mükafat sistemində siqnal ötürülməsi proseslərində daha çox dəyişiklik baş verir", - araşdırma rəhbəri Tarin Qrider deyib. İş ondadır ki, nikotindən asılı olmayan heyvanlarda iyrənclik hissi üçün cavabdeh olan həmin dopamin neyronları mükafat olaraq asılılıqdan əziyyət çəkən insanlarda çəkməkdən imtina şəklində bir sevinc hissi yaradır. "Asılılıq yarandığı zaman beynin motivasiya sistemində bir keçid meydana gəlir, - tədqiqatçı alim Qrider deyib. Artıq söhbət özünü yaxşı hiss etməkdən deyil, orqanizmdə nikotinin çatışmazlığından qaynaqlanan mənfi hisslərdən qurtulmaqdan gedir".

Alimlər ümid edirlər ki, nikotinə qarşı iyrənmə hissi yaradan neyronların aşkar edilməsi alkoqol asılılığından qurtulmaq istəyən insanlarda spirtli içki qəbul edərkən ürək bulanmasına səbəb olan dərmanların təsiri zamanı olduğu kimi, siqareti atmaq istəyənlər üçün də effektiv müalicə metodu yaratmağa kömək edəcək.

## Hörümçək toru əsasında yeni biokompozit hazırlanıb

Sankt-Peterburq Milli İnformasiya Texnologiyaları, Mexanika və Optika Universitetinin və İsveçin SLU Universitetinin alimlərinin birgə araşdırmaları nəticəsində təbii hörümçək torunun proteinləri və optik aktiv nanohissəciklər əsasında yeni biokompozit hazırlanıb. "Trend" xəbər verir ki, materialın əsas üstünlüyü onda təbii ipək lifləri və qeyri-üzvi sintetik hissəciklərin birləşməsinin olmasıdır. Unikal mexaniki xüsusiyyətlərə malik olan biokompozit yaxın infraqırmızı diapazonda təhrik zamanı optik cavab verə bildiyindən gələcəkdə onu biotibb sahəsində də istifadə etmək mümkün olacaq.



# Bu ölkədə nazir köməkçilərini süni intellekt əvəzləyəcək...



**İndoneziya Prezidenti Coko Vidodo bir sıra nazir köməkçiləri vəzifələrini ləğv etmək qərarına gəlib. "AZƏRTAC" bildirir ki, onların səlahiyyətlərini süni intellekt icra edəcək.**

"Mən nazirlərə üçüncü və dördüncü dərəcəli əməkdaşlarını süni intellekt texnologiyaları ilə əvəzləməyi əmr etmişəm. Onlar bürokratik işləri daha tez yerinə yetirməyə imkan verəcək", - deyə dövlət başçısı bildirib. İndoneziyanın iqtisadi məsələlər üzrə əlaqələndirici naziri Airlanqqa Hartartonun sözlərinə görə, bu yenilikdən, əsasən, dövlət lisenziyalarının verilməsi zamanı istifadə olunacaq. "Süni intellekt bizə risklərin avtomatik hesablaması sisteminə əsaslanaraq icazələri sənədləşdirmək imkanı yaradacaq", - deyə məmur qeyd edib.





**Qoç** - Ciddi problemləri götür-qoy etmək üçün münasib gündür. Situasiyanı analiz etmək, başqalarının nəzərdən qaçırdıqlarını görmək iqtidarındasınız. Vacib işlərlə məşğul olmaq, uzunmüddətli təsiri olan qərarlar vermək olar.



**Buğa** - Məhsuldar və maraqlı gündür. Bir çox problemləri qeyri-standart yanaşma yolu ilə həll edə bilərsiniz. Cəmiyyətin həyatında, xeyriyyə aksiyalarında iştirak etmək məsləhətlidir.



**Əkizlər** - Bu gündən çox şey gözləməyin. Azacıq da olsa, ciddi maneə ilə rastlaşan kimi başladığınız işləri yarımçıq qoymağa meyllisiniz. Təbiətinizə xas qətiyyət və inad bu gün sizi tərk edib.



**Xərçəng** - Yaxşı, asan gündür. Arxayınlaşıb ümumi axına qoşulmaq olar: o, sizi istədiyiniz yerə aparıb çıxaracaq. Əvvəllər aldığınız bilikləriniz və təcrübə köməyinizə gələcək. Ətrafdakılarla münasibətlər ahəngdardır.



**Şir** - Ciddiləşin, o zaman heyrətamiz nəticələr qazana bilərsiniz. Nailiyyətləriniz inanılmaz ola bilər, ancaq bu zaman gərək xırdalıqları unutmayasınız, başqalarının diqqət yetirmədiklərini görməyə çalışın.



**Qız** - Xoş, asan, maraqlı gündür. Ağlınıza maraqlı fikirlər gəlir və dərhal onlardan yararlanırsınız. Yaradıcı potensialınız çox yüksəkdir. Yeni bir işə başlaya bilərsiniz, uğur qazanacağınıza əmin olun.



**Tərəzi** - Heç də düşündüyünüz kimi pis gün deyil. Ciddi nailiyyət və başgicəlləndirici qələbə qazanacağınıza hazırlaşmayın. Çox mümkündür ki, bunların miqyası xırda olacaq, amma kefiniz korlanmayacaq.



**Əqrəb** - Sahibkarlar ciddi uğurlara və sərfəli sövdələşmələrə ümid edə bilərlər. Günəmuzd işləyənlərin isə gəlir baxımından bu gün bəxtləri gətirmir. Danışıqlar aparmaq olar, amma son qərarı vermək hələ tezdir.



**Oxatan** - Xoş gündür. Gözlənilməz uğurlar, qələbələr mümkündür. Sırf maraq naminə girişdiyiniz işlər yaxşı gəlir gətirir. Eksperiment və risk etməkdən, qeyri-adi qərar qəbul etməkdən çəkinməyin.



**Oğlaq** - Bu gün xeyli gözəl hadisə vəd edir. Özünüzə və uğurunuza inanın. Risk etməkdən çəkinməyin: siz ciddi təhlükə olmayan anda qətiyyətli hərəkət etmək üçün kifayət qədər ehtiyatlısınız.



**Dolça** - İşlərdə bəxtiniz gətirəcək. Xeyli nailiyyət qazanmaq şansınız var. Rəqiblərinizi xeyli geridə qoya, çox nüfuzlu düşmənlərinizə qalib gələ bilərsiniz. Adəti üzrə olduğundan daha çox risk etməyə meyllisiniz, bu isə ciddi itkilərə yol açır.



**Balıqlar** - Gözlənilməz kəşflər və faydalı tapıntılar günüdür. Məntiqlə intuisiya arasında balansı tapınca rəqibləriniz qarşısında 1:0 üstünlük qazanacaqsınız. Qəfil xəbərlər sizə ilham verir, hiss edirsiniz ki, çox şeyə qadirsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Qocalıq əleyhinə" dərman ilk dəfə əllərdə sınandı

**Amerikalı alimlər qocalmağa qarşı dərman kimi təqdim etdikləri rapamicini ilk dəfə əllərin dərisində sınayıb. Qadının əlinin birini rapamisinli kremlə, digərini adi anti-age krem çəkiblər.**

Bir neçə aydan sonra bir əlin dərisi daha gənc və təravətli olub. Eksperimentin nəticəsi "Gerosciense" dərgisində çap olunub.

"Medicina.az" bildirir ki, rapamisin çox mürəkkəb və başqa tarixi olan dərmandır.

İlk əvvəl antibiotik kimi kəşf olunub, daha sonra immunsupressor kimi şiş əleyhinə teraiyada istifadə edilib, daha sonra alimlər onun gəncləşdirmə və əbədi gənclik təsirini kəşf ediblər.

Lakin bu dərmanın çox sayda əks təsirləri də var. Ona görə bu vaxta kimi onun insanlar üzərində geniş kliniki tədqiqatı yubanır.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

**e-mail: azer22@mail.ru**

**Reyestr № 0106-P219-45846**

**Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.**

*Sifariş: №2514* *Tiraj: 3050*

**Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.**

**Reklam mətninə görə qəzet məsuliyyət daşımır.**